www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-20 iyun 2024-cü il Şənbə № 105 (8478) Qiyməti 60 qəpik

**Xəbər**

## Qardaşlığımızı daşlaşdıran tarixi anlaşma - düz 3 il öncə...

yazısı səh.5-də

# SÜLH MÜQAVİLƏSİ HARADA, NƏ VAXT? - 6 AYDIR AÇIQ QALAN SUAL...

İrəvanın nala-mıxa vurma "taktikası" davam edir, ABŞ isə Kremlə görə tərəfləri tələsdirir - analitiklərin qeydləri...



yazısı səh.8-də

**Gündəm**

## COP-29-dan sonrakı Azərbaycan - dostlar sevinir, bədxahlar isə...



Elman Nəsirov:
"Ölkəmiz çox böyük bərpaolunan enerji potensialına malik olduğunu sübut edəcək"

yazısı səh.6-da

## Azərbaycanda Milli Qurtuluş Günü qeyd olunur

yazısı səh.5-də

## Paşinyan Bakıya görə Lukaşenkoya savaş açdı - niyə indi?

yazısı səh.11-də

## Türkiyə NATO-dan çıxacaq iddiası - qardaş ölkə yol ayrıcında?

yazısı səh.9-da

## Həm keyfiyyətli, həm də ucuz - uşaqları yay istirahəti üçün hara aparmalı...

yazısı səh.13-də

## Milyard dollarlıq kəşfin ilginc detalları

yazısı səh.9-da

## İrandan Azərbaycana 28 kq narkotik keçirilməsinin qarşısı alındı

yazısı səh.13-də

## Qəbul imtahanında iştirak etmək üçün qeydiyyat müddəti uzadıldı

yazısı səh.14-də

## Yayın futbol həyəcanı - AÇ-24 başladı

yazısı səh.14-də

## Türkiyədə hotel qiymətləri kəskin artdı

yazısı səh.10-da

## Yağış yağacaq, dolu düşəcək, çaylarda sululuq artacaq

yazısı səh.2-də

## Beş ayın yekunu: ÜDM istehsalı artıb, ixrac 31 faiz azalıb, idxal isə...

## Taksi xidmətində avtomobillərə qoyulan yeni tələblər Azərbaycana ucuz avtomobil idxalını azaldıb

yazısı səh.4-də




## Meyiti aşkarlanan hərbçimiz qətlə yetirilibmiş

yazısı səh.6-da



*Putin:*

## "Biz artıq geri dönüşü olmayan nöqtəyə yaxınlaşmışıq"

yazısı səh.7-də



*Elçin Mirzəbəyli:*

## "Paşinyan Minsk Qrupunun fəaliyyətinin məhz Rusiyaya görə dayandığını önə çəkmək istəyir"

yazısı səh.3-də

# Prezident Azərbaycan xalqını təbrik etdi



**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

***Musavat.com xəbər verir ki, təbrik mətnində deyilir:***

**"Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

**Əziz bacı və qardaşlarım!**

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!"

## Bayram günlərində Bakının bəzi küçələrində avtomobillərin hərəkəti məhdudlaşdırılacaq

**Milli Qurtuluş Günü və Qurban bayramı ilə əlaqədar elan edilən istirahət günlərində paytaxtın Zərifə Əliyeva (Rəsul Rza küçəsi ilə kəsişmədən sonra), Əbdülkərim Əlizadə, Tərlan Əliyarbəyov və Yusif Məmmədəliyev küçələrində avtomobillərin hərəkəti məhdudlaşdırılacaq.**



Bu barədə "APA-Economics"ə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib.

Qeyd edilib ki, sözügedən küçələrdəki binalarda yaşayan sakinlərin avtomobilləri üçün nömrətanıma sistemi tətbiq edilməklə əraziyə giriş təmin olunur. "AzParking" mobil tətbiqində fərdi parklanma talonu olan sakinlər xidmətdən yararlana bilirlər. Bu şəxslərin avtomobilləri sistem tərəfindən tanınır və onlar əraziyə buraxılır. Ərazidə yaşayan sakinlərə məhdudiyyət qoyulacaq əraziyə avtomobilləri ilə daxil olmaq üçün "AzParking" mobil tətbiqi üzərindən müraciət edərək fərdi parklanma talonu almaları tövsiyə edilir.

Sakinlər üçün nəqliyyat vasitələri ilə əraziyə giriş Neftçilər prospektindən Tərlan Əliyarbəyov, çıxış isə Yusif Məmmədəliyev küçələrindən təmin olunur.



## Aİ COP29-da Azərbaycanın ən yaxşı nəticələrə nail olacağına ümid edir

**Avropa İttifaqı (Aİ) iqlim dəyişikliyi ilə mübarizədə əsas oyunçulardan biri kimi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasına (COP29) ev sahibliyi edən Azərbaycanın bu konfransda ən yaxşı nəticələrə nail olacağına ümid edir.**

"Report"un Energetika Nazirliyinə istinadən verdiyi məlumata görə, bunu Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanovla görüşündə bildirib.

Görüşdə COP29 çərçivəsində Aİ ilə tərəfdaşlıq və İttifaqla ümumi əməkdaşlıq kimi məsələlər müzakirə edilib. Aİ tərəfinə danışıqlar prosesi və fəaliyyət gündəliyi haqqında məlumat verilib, Bonn şəhərində keçirilən İqlim Konfransının nəticələri müzakirə edilib və danışıqların uğurla həyata keçirilməsində bütün tərəflər kimi Aİ-nin də konstruktiv mövqeyinin əhəmiyyəti vurğulanıb.

COP məqsədlərinin səmərəli həyata keçirilməsi üçün cari il ərzində COP29-la bağlı tədbirlərin təşkilinə dair müzakirələr aparılıb.



## Yağış yağacaq, dolu düşəcək, çaylarda sululuq artacaq

**İyunun 15-16-sı gündüz saatlarında əsasən dağlıq və dağətəyi rayonlarda, 17-si gündüz isə bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**

APA xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidmətinin məlumatında deyilir. Bildirilir ki, ayrı-ayrı yerlərdə (Daşkəsən-Gədəbəy, Qarabağ və Şərqi Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Naxçıvan MR, Lənkəran-Astara) yağıntıların leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.




## Rusiyada polisə miqrantları məhkəməsiz ölkədən çıxarmaq səlahiyyəti verilib

**Rusiya Federasiyasında polisə miqrantları müstəqil şəkildə ölkədən çıxarmaq səlahiyyəti verilib.**

APA-nın Moskva müxbiri xəbər verir ki, müvafiq qanun layihəsi Dövlət Duması tərəfindən təsdiqlənib.

Qanun layihəsinin müəllifləri qeyd ediblər ki, bu, prosedurun dəyərini əhəmiyyətli dərəcədə azaldacaq, çünki qeyri-qanuni miqrantları artıq məhkəməyə aparılmayacaq. Eyni zamanda bu, miqrantın ölkədən çıxarılma prosesini sürətləndirəcək.



## DİN-dən ahıl və tənha vətəndaşların dələduzluğa məruz qalmasına dair xəbərdarlıq

**Daxili İşlər Nazirliyi (DİN) ahıl və tənha vətəndaşların dələduzluğa məruz qalması ilə bağlı xəbərdarlıq edib.**

DİN-in Mətbuat Xidmətindən APA-ya verilən məlumata görə, yaxın qohumlarının xəstə olması, müalicəsinə təcili pul lazım olması ilə bağlı vətəndaşlara kütləvi zənglər edilir:

"Naməlum şəxslər müxtəlif xarici, yerli nömrələrdən mobil və ev telefonlarına zənglər etməklə yaxın qohumları - övladı, bacısı, qardaşı, atası və anasının xəstəxanaların birində ağır vəziyyətdə olması ilə bağlı vətəndaşlara yalan məlumatlar verərək təcili ödəniş edilməsi üçün müxtəlif məbləğlərdə pul vəsaitləri tələb edirlər. Cinayətkar şəxslər və qruplar tərəfindən əsasən ahıl, tənha vətəndaşlar hədəf seçilməklə, onların yaşadıqları ünvanlara kuryerlər göndərməklə tələb olunan vəsaitlər nağd və ya onlayn formada ələ keçirilir.

Qeyd olunanları nəzərə alaraq, diqqətə çatdırırıq ki, belə hallarla bağlı vətəndaşlar diqqətli olsunlar, daxil olan zənglər üzrə verilən məlumatları dəqiqləşdirsinlər, tanımadıqları şəxslərə pul vəsaitlərini verməsinlər".

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

# Paşinyanın "A"dan sonra "B" demək problemi - Bakı gözləməyi bacarır

**Elçin Mirzəbəyli:** "Paşinyan ATƏT-in Minsk Qrupunun fəaliyyətinin məhz Rusiyaya görə dayandığını önə çəkmək istəyir"
**İlyas Hüseynov:** "Hesab edirəm ki, qarşıdakı dönəmdə ATƏT-in Minsk Qrupunun buraxılmasına dair Azərbaycanla Ermənistan arasında birgə rəsmi fikir ifadə olunar"





**ATƏT-in Minsk Qrupu (MQ) 2022-ci ilin fevralından sonra fəaliyyətini de-fakto dayandırıb. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə son çıxışı zamanı söyləyib.**

Yeni artıq Ermənistan rəhbəri də ilk dəfə olaraq etiraf edir ki, bu adda vasitəçi (qurum) yoxdur. Elədirsə, yeni Bakı ilə sülh danışıqlarında o səmimidirsə, nədən rəsmi İrəvan Bakının təklifini qəbul edib MQ-nin de-yure ləğvi üçün ATƏT-ə birgə müraciət etmir?

Yada salaq ki, Prezident İlham Əliyevin həmin təklifi ilə bağlı parlamentin spikeri Alen Simonyan bildirmişdi ki, sülh müqaviləsindən sonra MQ-yə onsuz da ehtiyac qalmayacaq. Halbuki iki ölkə arasında imzalanacaq sülh sənədinin "Dağlıq Qarabağ konflikti"nin həlli üçün yaradılan (1994) MQ-yə dəxli yoxdur. Bu iki ayrı məsələni süni şəkildə bir-birinə bağlamaq cəhdi isə dolayasıyla Azərbaycana qarşı torpaq iddiasının davam etdiyinin, erməni tərəfinin hələ də "bəlkə də qaytardılar" ümidi ilə yaşadığının təzahürü sayıla bilər.

Paşinyan MQ ilə bağlı "A"dan sonra "B" də deyəcəkmi? Nə zaman?

Hər halda Bakı gözləməyi bacarır...

Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyanın Minsk Qrupu ilə bağlı söylədikləri ilə Bakının təklifi arasında yanaşma fərqi var. Rəsmi Bakı ATƏT-in Minsk Qrupunun defakto ömrünün və fəaliyyətinin çoxdan başa çatdığını, təsisatın özünün missiyasının öhdəsindən gələ bilmədiyini və uğursuzluğa düçar olduğunu bildirir. Təbii ki, Ermənistan tərəfinə də artıq heç bir əhəmiyyəti olmayan, ömrünü başa vuran bir təsisatdan imtina eləməyi tövsiyə edir. Bu tövsiyənin təməlində həm də o aspekt dayanır ki, Azərbaycan da Ermənistan da prinsip etibarilə ATƏT-ə üzvlük haqqı ödəyirlər və bu üzvlük haqqı hal-hazırda heç bir faydası olmayan bir təsisatın saxlanılmasına xərclənir, ATƏT Minsk Qrupunun fəaliyyət göstərmədən heç bir əsas olmadan mövcudluğu ATƏT-ə ayrılan vəsaitlərin boş yerə xərclənməsi anlamına gəlir: "Ermənistan isə bunu fərqli kontekstdən deyir-yeni ATƏT-in Minsk Qrupu fəaliyyətini dayandırıb, amma bu fəaliyyətin bərpa olunmasına ehtiyac var. Bu mesaj tək faktiki olaraq ATƏT-ə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə, daha çox ABŞ-a və Fransaya ünvanlanıb. Nikol Paşinyan həm də burada Rusiyanın konkret Minsk Qrupu çərçivəsində fəaliyyət göstərmədiyini və ya fəaliyyətinin mümkünsüz olduğunu önə çəkir. Biz Paşinyanın açıqlamalarına kompleks şəkildə yanaşmalıyıq. Bu açıqlamaların içərisində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Belarusa ünvanlanmış ittihamlar da var. Nəticə etibarilə KTMT-nin tərkibində əsas dominant rolu Rusiyanın oynadığını nəzərə alsaq, dolayısı ilə bu həm də Rusiyanın Minsk Qrupundakı fəaliyyətsizliyinə diqqət çəkmək xarakteri daşıya bilər. Amma mən Nikol Paşinyanın ATƏT-in Minsk Qrupunun fəaliyyətinin dayandırılması, artıq mövcud olmadığı və onun fəaliyyətinə ehtiyac duyulmadığı barədə dediklərinin səmimi olduğuna inanmıram. Nəticə etibarilə ola bilsin ki, indiki halda Ermənistan hansısa təhlükəsizlik mexanizmlərini və bu mexanizmlərin alt qatında ABŞ-ı nəzərdə tutur. Bu da bir da Paşinyanın yanaşma tərzinin nədən ibarət olduğunu göstərir. Paşinyan ATƏT-in Minsk Qrupunun fəaliyyətinin məhz Rusiyaya görə dayandığını önə çəkmək istəyir".

Sosial Tədqiqatlar Mərkəzini sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, Nikol Paşinyan ATƏT-in Minsk Qrupunun fəaliyyət göstərmədiyini deyərək bunun səbəblərini özünəxas formada ifadə eləyib. Paşinyan Minsk Qrupunun 2022-ci ilin fevralından fəaliyyət göstərmədiyinə eyham vuraraq bildirməyə çalışır ki, Rusiya-Ukrayna müharibəsi başlayandan etibarən Fransa və ABŞ Rusiya ilə birlikdə Cənubi Qafqazdakı proseslərdə iştirak etmək istəmir və bu da faktiki olaraq Minsk Qrupunun fəaliyyətsizliyi anlamını verir: "Lakin bu xüsuda qeyd etməliyik ki, Bakının tələbləri kifayət qədər ədalətli və hazırkı reallıqları əks etdirən yanaşmadır. Çünki Bakı ilə İrəvan birlikdə ATƏT-ə müraciət edərlərsə o zaman Minsk Qrupunun fəaliyyətinə rəsmən son qoyular. Biz Nikol Paşinyanın bundan öncə davranışları ilə müqayisədə görürük ki, Paşinyan indi Bakının müraciətinə müəyyən qədər pozitiv yanaşma sərgiləyir. İndi bizim üçün önəmli olan Paşinyanın fikirlərindən sonra onun atacağı praktiki addımların nədən ibarət olmasıdır.

Mənə belə gəlir ki, ATƏT-in Minsk Qrupu buraxılacaq. Ermənistan konstitusiyası da dəyişiləcək. Hesab edirəm ki, qarşıdakı dönəmdə ATƏT-in Minsk Qrupunun buraxılmasına dair Azərbaycanla Ermənistan arasında birgə rəsmi fikir ifadə olunar. Bakı ilə İrəvanın bunun üçün ATƏT-ə birgə müraciət etməsi ikitərəfli münasibətlərdə yeni bir müsbət hadisə olacaq, yeni bir mənzərəni formalaşdıracaq. Əgər belə bir hadisə baş versə keçmiş həmsədr dövlətlər üçün də bir işarə olacaq ki, Azərbaycan və Ermənistan ortaq mövqe taparaq mənasız vasitəçilərdən imtina edirlər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**




# Tofiq Yaqublunun məhkəməsi başlayıb

**Milli Şuranın üzvü Tofiq Yaqublu və onunla birgə ittiham olunan jurnalist Elnur Məmmədovun (Vaqifoğlu) cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

APA xəbər verir ki, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Tofiq Yaqublunun vəkili Nemət Kərimli vəsatət verərək müdafiə etdiyi şəxsin şüşə qəfəsdən çıxarlaraq vəkillərin yanında oturmasını və bundan sonrakı proseslərin böyük zalda keçirilməsini xahiş edib.

Vəsatət qismən təmin edilib.

Hakim bildirilib ki, gələn prosesdən Tofiq Yaqublu vəkillərinin yanında əyləşə bilər: "Məhkəmənin böyük zalda keçirilməsinə gəlincə, proses digər işlərlə üst-üstə düşməyəcəyi təqdirdə o məsələni həll etməyə çalışacağıq".

Daha sonra Tofiq Yaqublunun digər vəkili Aqil Layıc vəsatətlə çıxış edərək müvəkkilinin barəsində olan cinayət işinə bəraətverici əsaslarla xitam verilməsini, bunun təmin olunmayacağı təqdirdə Tofiq Yaqublu barəsində seçilmiş həbs qətimkan tədbirinin həbslə bağlı olmayan alternativ qətimkan tədbiri ilə dəyişdirilməsini istəyib.

Vəsatətlər təmin edilməyib.

Məhkəmə baxışı iyunun 21-nə təyin edilib.

Qeyd edək ki, Tofiq Yaqublu Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham edilir.

İstintaqın gedişatında Elnur Məmmədov (Vaqifoğlu) təqsirləndirilən şəxs qismində cəlb edilib.

Ona Cinayət Məcəlləsinin 178 (dələduzluq)və 320 (saxta sənəd hazırlama və ondan istifadə) maddələri ilə ittiham verilib. Onun barəsində həbs qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

# Beş ayın yekunu: ÜDM istehsalı artıb, ixrac 31 faiz azalıb, idxal isə...

## Taksi xidmətində avtomobillərə qoyulan yeni tələblər Azərbaycana ucuz avtomobil idxalını azaldıb

**Dövlət Statistika Komitəsi Azərbaycan iqtisadiyyatının əsas göstəricilərini açıqlayıb. Komitənin məlumatından aydın olur ki, 2024-cü ilin yanvar-may aylarında ölkədə 48,0 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Ötən ilin yanvar-may ayları ilə müqayisədə iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər istehsalı 7,3 faiz artıb, neft-qaz sektorunda isə eyni səviyyədə qalıb.**

Sənaye sahəsində neft-qaz sektorunda istehsal 0.2 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 7 faiz artıb.



2023-cü ilin yanvar-may ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,1 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,7 faiz, bitkiçilik məhsulları istehsalı 7,4 faiz artıb. Beş ayda diri çəkidə 230,8 min ton ət, 915,1 min ton süd, 983,5 milyon ədəd yumurta, 11,4 min ton yun istehsal olunub. 2023-cü ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 7,1 faiz artıb, yun istehsalı isə 2,6 faiz azalıb.

Komitənin məlumatına əsasən iyun ayının 1-nə kimi tarlalardan 89,0 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 8,5 faiz çox taxıl, 160,2 min ton (6,9 faiz az) kartof, 429,4 min ton (11,5 faiz çox) tərəvəz, 33,6 min ton (14,2 faiz çox) meyvə və giləmeyvə, 453,5 ton (8,6 faiz az) yaşıl çay yarpağı yığılıb.

2024-cü ilin yanvar-may aylarında Azərbaycanda əsas kapitala 6 milyard 640,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,0 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,2 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 12,1 faiz artıb.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən beş ayda 94,0 milyon ton yük və 802,7 milyon sərnişin daşınıb. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 3,4 faiz, sərnişin daşınması isə 8,1 faiz artıb.

2024-cü ilin yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 21,5 milyard manatlıq, o cümlədən 12,1 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,4 milyard manatlıq qeyri-ərzaq malları satılıb. 2023-cü ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,8 faiz, qeyri-ərzaq malları üzrə 5,2 faiz artıb.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 56,3 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 13,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 4,5 faizi elektrik malları və mebellərin, 2,4 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Dövlət Gömrük Komitəsinin açıqladığı statistikadan isə aydın olur ki, 2024-cü ilin yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 18 milyard 439.27 milyon dollar təşkil edib. Bu, 2023-ci ilin eyni dövrü ilə müqayisədə 19,6 faiz azdır. Xarici ticarət dövriyyəsindəki azalma tamamilə ixracdakı azalmadan qaynaqlanır. Belə ki, beş ayda Azərbaycanın ixracı 11 milyard 138.58 milyon ABŞ dolları təşkil edib ki, bu da illik ifadədə 31 faiz azalma deməkdir. İdxal isə əksinə, 6,7 faiz artaraq 7 milyard 300.69 milyona ABŞ dollarına çatıb. Nəticədə, ölkənin xarici ticarət dövriyyəsindəki müsbət saldo 3 milyard 837.89 milyon dollara düşüb ki, bu da 2023-ci ilin beş ayına nəzərən 2,4 dəfə azdır.

İxracın 9 milyard 877 milyon 696.28 min dolları neft-qaz bölməsinin, 1 milyard 260 milyon 884.71 min dolları qeyri-neft-qaz bölməsinin payına düşüb. "Yeni Müsavat"ın Dövlət Gömrük Komitəsinin statistikasına əsasən apardığı hesablamaya görə, neft-qaz ixracımız ötən ilin eyni dövrü ilə(14 milyard 648 milyon 531.16 min dollar) müqayisədə 32,6 faiz, qeyri-neft-qaz ixracımız isə(1 milyard 465 milyon 801.51 min dollar) 14 faiz azalıb.

Neft-qaz ixracının tərkibində əsas paya malik olan bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixracı 6 milyard 258 milyon 631.31 min dollar dəyərlə 9 869 672.49 ton təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 13,3 faiz(ötən ilin beş ayında 7 milyard 220 milyon 253.42 min dollarlıq ixrac qeydə alınmışdı - red.), həcm ifadəsində isə 16 faiz(11 752 575.69 ton) azalma deməkdir. Sektorun digər əsas məhsulu olan təbii qaz ixracı 7 milyard 103 milyon 82.74 min dollar dəyərlə 9 milyard 912 milyon 607.09 min kubmetr təşkil edib. Qaz ixracı həcm baxımından artsa da(ötən il 9 milyard 362 milyon 793.62 min kubmetr), dəyər ifadəsində (7 milyard 103 milyon 82.74 min dollar) 51,4 faiz azalıb. Min kubmetr qazın ixrac qiyməti ötən il 758,6 dollar olduğu halda, bu il 348,12 dollara qədər ucuzlaşıb.

Energetika Nazirliyinin məlumatına əsasən 2024-cü ilin yanvar - may aylarında Azərbaycanda 20,9 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 5,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 11,6 milyard kubmetri "Şahdəniz", 0,65 milyard kubmetri "Abşeron", 3,2 milyard kubmetri SOCAR üzrə hasil olunub. Qaz hasilatı ötən ilin müvafiq dövrünə nisbətən 0,7 milyard kubmetr çox olub.

5 ay ərzində xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Beş ayda Avropaya 5,3 milyard kubmetr, Türkiyəyə 4,1 milyard kubmetr, Gürcüstana isə 1,2 milyard kubmetr qaz satılıb.

2024-cü ilin yanvar - may aylarında ölkədə 12 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft hasilatının 6,8 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 1,8 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,25 milyon tonu (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 3,1 milyon ton təşkil edib.

Hesabat dövründə 9,9 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 8,6 milyon tonu konsorsiumun, 1,3 milyon tonu isə SOCAR-ın payına düşüb.

Xatırladaq ki, ötən ilin yanvar-may aylarında ölkədə 12,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Neft hasilatının 7,7 milyon tonu AÇG-nin 1,8 milyon tonu (kondensat) "Şahdəniz"in payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 3,2 milyon ton təşkil edib.

Hesabat dövründə 10,6 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 9,5 milyon tonu konsorsiumun, 1,1 milyon tonu isə SOCAR-ın payına düşüb. Bu isə o deməkdir ki, SOCAR neft-kondensat ixracını 200 min ton artırıb, AÇG konsorsiumu isə 900 min ton azaldıb.

Qeyri-neft ixracında ən çox artımı qeyd olunan məhsullardan biri pambıq lifidir. Ötən ilki 50,4 milyon dollara qarşı bu il ixrac 100,2 milyon dollara çatıb. Bundan əlavə, alma, xurma ixracında da artım var.

İxracında ciddi artım olan digər qeyri-neft məhsulu pomidordur. 2024-cü ilin yanvar-may aylarında Azərbaycandan 108 milyon 587 min dollar dəyərində 86 min 67 ton pomidor ixrac olunub. Pomidor ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 17 milyon 115 min dollar və ya 19%, miqdar ifadəsilə 7 min 991 ton və ya 10% artıb.

2023-cü ilin ilk 5 ayında isə Azərbaycandan 91 milyon 472 min dollar dəyərində 78 min 76 ton pomidor ixrac olunmuşdu.

Pomidor ixracındakı bu artımın əsas səbəbi əsas ixrac bazarı olan Rusiyada iyunun sonunadək bir sıra pomidor növlərinin idxalının rüsumlardan azad olunmasıdır. Azərbaycanın Rusiyaya ixrac etdiyi pomidor bu güzəştə düşən növlərdir.

İxracı azalan kənd təsərrüfatı məhsullarından kartof(ötən ilki 23,4 milyon dollar qarşı bu il 14,5 milyon dollar), meşə fındığı(54,6 milyon dollardan 47,5 milyon dollara), nar(8 milyon dollardan 3.3 milyon dollara) var.

Pambıq iplik ixracında da kəskin azalma var. Ötən ilin 5 ayında 15,3 milyon dollarlıq pambıq iplik ixrac olunmuşdusa, bu ilin eyni dövründə bu göstərici 8,6 milyon dollara düşüb.

İdxaldakı artıma gəlincə, diqqəti bir sıra ərzaq məhsulları cəlb edir. Belə ki, ət idxalı 33,2 milyon dollardan 48,5 milyon dollara, K?r? yağı v? südd?n hazırlanmış dig?r yağların idxalı 41,3 milyon dollardan 54,2 milyon dollara qədər artıb. Buğda idxalı 135 milyon dollardan 72,7 milyon dollara(həcm ifadəsində 450 152 tondan 328 542 tona), əczaçılıq məhsulları idxalı 288,8 milyon dollardan217,1 milyon dollara(həcm ifadəsində 13 759.46 tondan 10 667.86 tona) qədər azalıb.

Yeri gəlmişkən, taksi xidmətində avtomobillərə qoyulan yeni tələblər Azərbaycana ucuz avtomobil idxalını azaldıb. Belə ki, 2024-cü ilin yanvar-may ayları ərzində ölkəyə ümumilikdə 648 milyon 457 min dollar dəyərində 35 570 ədəd avtomobil idxal olunub. Bu isə o deməkdir ki, 2023-cü ilin yanvar-may ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 11.7 faiz və ya 4 694 ədəd azalıb, dəyəri isə 6 faiz və ya 36.5 milyon dollar artıb Xatırladaq ki, 2023-cü ilin müvafiq dövründə Azərbaycana 611 milyon 967 min dollar dəyərində 40 264 ədəd avtomobil idxal edilib.

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 105 (8478) 15 iyun 2024



# Qardaşlığımızı daşlaşdıran tarixi anlaşma - düz 3 il öncə...

## "Göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatçısıdır"

**Bu gün - 15 iyun Qurtuluş Günü, eyni zamanda Şuşa Bəyannaməsinin "doğum" günüdür. Düz 3 il öncə Şuşada Azərbaycan və qardaş Türkiyənin liderləri - Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan dostlarımızı sevindirən, düşmənlərimizi isə dərindən məyus edən tarixi sənədə imza atdılar.**

Bununla da Azərbaycan-Türkiyə qardaşlığı və tandemi yeni, daha ciddi və daha real məzmun qazandı. Bütün dünyaya bəyan edildi ki, bundan sonra Azərbaycana hücum etmək istəyən iki dəfə düşünməli olacaq, çünki önündə həm də Türkiyəni görəcək. Eləcə də qardaş məmləkətə pis gözlə baxan qarşısında Azərbaycanı görəcək.

Məlumdur ki, 22 fevral (2022) Moskva Bəyannaməsindən fərqli olaraq, Şuşa Bəyannaməsini həm Azərbaycan, həm də Türkiyə parlamentləri təsdiqləyib. Bəs ratifikasiyanın konkret önəmi nədən ibarətdir?

Mövzu ilə bağlı millət vəkili Elman Nəsirov "Yeni Müsavat"a danışıb:

"15 iyun xaosun sonu və tarixi zəfərlərimizin başlanğıc nöqtəsi hesab oluna bilər. Məhz 15 iyun tarixində xalqımızın bütün gələcək inkişafı, dövlətçiliyinin xilasının əsasları qoyuldu. Xalqın təkidi, tələbi və xahişi ilə Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın sabitlik, inkişaf dövrü başlandı.

Eyni zamanda 15 iyun başqa çox mühüm tarixi hadisə ilə bağlı gündür - 2021-ci ilin bu günündə Azərbaycan və Türkiyə prezidentləri Şuşa şəhərində tarixi Şuşa Bəyannaməsinə imza atdılar. Artıq 3 ildir ki, beynəlxalq siyasətdə məhz strateji və hərbi müttəfiq kimi çıxış edirik. Hər hansı birimizə qarşı təcavüz olarsa, bütün vasitələr ilə bir-birimizə dəstək göstərmək öhdəliyinə malikik. Bu, anti-Azərbaycan dairələr üçün çox ciddi siqnaldır. Onlar bilirlər ki, Azərbaycana qarşı addım atsalar, qarşılarında qardaş Türkiyə dövlətini görəcəklər. O dövlət ki, öz hərbi gücünə görə NATO-da ABŞ-dan sonra ikinci dövlətdir, iqtisadi gücünə görə Avropada 6-7-ci sırada qərarlaşıb.

Beləliklə, hesab edirəm ki, bu dostluğumuz, qardaşlığımız bizi bu gün və gələcəkdə çox böyük faciələrdən, təhlükələrdən qoruyan amildir. Və bu dostluğumuz, qardaşlığımız müttəfiqliyimiz regiona sülh və əmin-amanlıq gətirir, heç bir üçüncü dövlətə qarşı yönəlməyib.

Doğrudur, Şuşa Bəyannaməsindən sonra Azərbaycan 2023-cü ildə Rusiya ilə müttəfiqlik Moskva Bəyannaməsini imzaladı. Amma müqayisə etsək görərik ki, onlar arasında mahiyyət və mənasına görə çox ciddi fərqlər var. Belə ki, Şuşa Bəyannaməsi həm Azərbaycan, həm də Türkiyə parlamentində ratifikasiya olunub, təsdiqlənib. Lakin eyni sözləri Moskva Bəyannaməsi üçün deyə bilmərik.

Bu gün fəxr və qürur hissi ilə qeyd edirik ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dünya üçün nümunədir".

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə isə qeyd edib:

"İyunun 15-i ölkəmizdə çox əlamətdar bir gündür. Hər il həmin gün respublikamızda geniş miqyasda təntənə ilə qeyd olunur. Məhz 31 il əvvəl iyunun 15-də Azərbaycanda yeni mərhələnin başlanğıcı oldu. Ulu öndər Heydər Əliyev Ali Sovetin Sədri seçilməklə ölkəmiz parçalanmadan, xəritədən birdəfəlik silinməkdən, xaos və anarxiyadan qurtuldu.

Həmçinin 28 il sonra, 2021-ci il iyunun 15-i yenə də əlamətdar hadisə ilə yaddaşlara əbədi həkk olundu. 30 ilə yaxın bir müddətdə işğal altında olan, lakin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun gücü ilə düşməndən azad edilmiş Şuşada Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamə imzalandı.

Həmin gün dünya ictimaiyyətinin diqqəti Şuşaya yönəlmişdi. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ailə üzvləri və böyük bir nümayəndə heyəti ilə Şuşaya səfər etdi. Bu tarixi əhəmiyyətli səfər Azərbaycan-Türkiyə birliyinin sarsılmaz olması barədə həm Ermənistana, həm də onun havadarlarına bir mesaj idi. Şuşada iki qardaş ölkə arasında Bəyannamənin imzalanması isə düşmənə göz dağı idi. Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində birgə milli mənafelər baxımından siyasi, humanitar, iqtisadi, elm, təhsil, mədəniyyət, hərbi və təhlükəsizlik, o cümlədən media sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur.

İlham Əliyev bu sənədi yüksək qiymətləndirərək bildirmişdi: "Birgə Bəyanname - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Müttəfiqlik haqqında Bəyannamə özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatçısıdır".

Beləliklə, Şuşa Bəyannaməsi Azərbaycan - Türkiyə əlaqələrini ən yüksək zirvəyə qaldırdı, yeni regional geosiyasi konfiqurasiyanın qurulmasında, iki dost və qardaş ölkə arasında əlaqələrin ən yeni mərhələyə qədəm qoymasında mühüm əhəmiyyət kəsb edir.

Sənəddə diqqət çəkən digər məqamlardan biri də beynəlxalq əhəmiyyətli layihələrin reallaşmasıdır. Məlum olduğu kimi, Azərbaycanın Cənubi Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaq. Zəngəzur dəhlizinin açılması İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir.

Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə tutarlı cavab oldu. Həm də Azərbaycanın gücünü, qüdrətini təcəssüm etdirdi.

Bundan başqa, ölkələr arasında müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin Bəyannamədə əks olunması tarixi nailiyyətdir. Ölkələr bundan sonra da bir-birinin təhlükəsizliyini təmin edəcək. Müdafiə sənayesi sahəsində əlaqələrin inkişafı ölkələrin hərbi qüdrətini artıracaq. İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatları böyük rol oynayıblar. Azərbaycan bu prosesdə istehsal mərkəzi kimi inkişaf edəcək".

**Xalidə GƏRAY, "Yeni Müsavat"**




# Azərbaycanda Milli Qurtuluş Günü qeyd olunur

**15 İyun - Azərbaycanda Milli Qurtuluş günüdür.**

1993-cü ilin iyununda ölkədə yaranmış mürəkkəb ictimai-siyasi durum Azərbaycanda real vətəndaş müharibəsi təhlükəsi yaradıb.

Gəncədə dislokasiya olunmuş 709 saylı hərbi hissə itaətsizlik göstərərək Müdafiə Nazirliyinə tabe olmadığını bəyan edib, hökumət hərbi qiyamı yatırmaq üçün Gəncəyə hərbi birləşmələr göndərib. Lakin yürüdülən yarıtmaz siyasət nəticəsində qiyamın miqyası genişlənib və idarə olunmayacaq səviyyəyə çatıb. Qiyam qaldıran hərbi birləşmələr Bakıya doğru istiqamət götürüb, qiyamın başında duranlar hakimiyyətin dəyişməsini tələb edib. (APA)

Vətəndaş müharibəsi üçün ciddi zəmin yarandığı vəziyyətdə təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat iqtidarı son anda kömək üçün Heydər Əliyevə müraciət edib. Naxçıvan MR Ali Məclisinin sədri olan görkəmli ictimai-siyasi xadim Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəlib. Ölkəni vətəndaş müharibəsi təhlükəsindən qurtarmaq missiyasını üzərinə götürən Heydər Əliyev həyatını təhlükə altında qoyaraq Gəncəyə gedib və apardığı danışıqlar nəticəsində vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını alıb.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, bununla da, Azərbaycanın ən yeni tarixində növbəti və bu günə qədər davam edən uğurlu mərhələ başlayıb. 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş günü kimi düşüb.

15 iyun tarixi 1998-ci ildən dövlət səviyyəsində bayram kimi qeyd olunur və qeyri-iş günüdür.

# COP-29-dan sonrakı Azərbaycan - dostlar sevinir, bədxahlar isə...

**Qarşıdakı payız Azərbaycan daha bir böyük beynəlxalq tədbirə ev sahibliyi edəcək (COP-29, 11-21 noyabr). Bu, sözsüz ki, ölkəmizə olan beynəlxalq inam və etimadın növbəti sübutudur.**

Məlumdur ki, Bakıda hələ bu səviyyədə mötəbər, qlobal əhəmiyyətli tədbir keçirilməyib. Söhbət həm də bir çox ölkə rəhbərlərinin eyni vaxtda Azərbaycana səfərə gəlməsindən gedir. Bu isə dövlət adına böyük məsuliyyət olmaqla yanaşı, uğurlu təşkilatçılıq və təhlükəsizlik məsələlərinin təşkili, çevik və mobil tədbirlərin reallaşması zərurəti deməkdir.

Heç şübhəsiz, Azərbaycan Respublikası bu işlərin də öhdəsindən uğurla gələcək, gərəkənləri edəcək və ölkə adına yeni dividentlər qazanacağıq. Hər halda təcrübə də var.

Millət vəkili Elman Nəsirov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı məsələləri prioritet elan edib və bu istiqamətdə ciddi əməli addımlar atır:

## Elman Nəsirov: "Ölkəmiz çox böyük bərpaolunan enerji potensialına malik olduğunu sübut edəcək"

"Azərbaycanın COP29 tədbirinə ev sahibliyi etməsi bütün dünyaya Azərbaycanın həm ənənəvi, həm də bərpaolunan enerji mənbələri ilə zəngin olduğunu bir daha sübut edir. Nəzərə alsaq ki, COP28 BƏƏ-də keçirilib, COP29 Azərbaycan, COP30 isə Braziliyada keçiriləcək, bu siyahının özü də Azərbaycanın dünyanın nəhəng iqtisadiyyatları ilə yanaşı addımlar atdığını göstərir. Bu tədbir sayəsində dünyanın nəbzi Bakıda döyünəcək. Təxminən 80 mindən artıq xarici qonağın ölkəmizə səfəri gözlənilir. Eyni zamanda tədbirin nəhəngliyi ondan ibarətdir ki, tədbir çərçivəsində bir çox beynəlxalq təşkilat sammitləri Bakıda keçirəcəklər. Bir çox halda nəhəng beynəlxalq təşkilatların sammitləri dünyanın həmin dövr üçün gündəliyini müəyyən edir. COP29 çərçivəsində keçiriləcək sammitlər isə tədbirin miqyasını aydın göstərir. Azərbaycan bu tədbirə ev sahibliyi etməklə böyük potensiala malik olduğunu və bu potensialı reallaşdırdığını sübut edir".

E.Nəsirov hesab edir ki, COP29-a həm də Ermənistan-Azərbaycan sülh gündəliyinin tərkib hissəsi kimi baxmaq lazımdır: "Bu tədbir çərçivəsində təkcə iqlim dəyişikliyi, maliyyə məsələləri deyil, eyni zamanda Azərbaycanın təşəbbüsü ilə sülh gündəliyi, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı məsələlər diqqət mərkəzində saxlanacaq. Azərbaycan Prezidenti cənab İlham Əliyev də söyləyib ki, COP29-a qədər Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istisna deyil. Ermənistanın bu istiqamətdə əməli addımlar atacağına ümid edirik. İlk növbədə Ermənistanın Konstitusiyasında Türkiyə və Azərbaycana qarşı ərazi iddialarından imtina etməsini, bunu referendum vasitəsilə həyata keçirməsini, xalqın siyasi iradəsinin ortada olmasını, bütün iddiaların aradan qaldırılmasını gözləyirik. COP29-a qədər bütün bu proseslərin yekunlaşacağına ümid bəsləyirik".

O ki qaldı COP29-dan sonrakı Azərbaycanla bağlı gözləntilərə, E.Nəsirov qeyd etdi ki, tədbirdən sonra Azərbaycan özünü dünyaya tamam fərqli şəkildə təqdim edəcək: "Beynəlxalq ictimaiyyətin müəyyən hissəsi, bəzi dövlətlər Azərbaycanı zəngin neft-qaz ölkəsi olmaqda, zəngin qazıntı ehtiyatlarına malik olmaqda ittiham edirlər. Onlar iddia edirlər ki, 2,6 trilyon kubmetr həcmində qaz ehtiyatı, 1,5 -2 milyard ton neft ehtiyatına malik olan ölkədə iqlim dəyişikliyi ilə bağlı tədbirin keçirilməsi guya düzgün deyil. Azərbaycan isə öz əməli addımları ilə sübut edib ki, biz neftdən və qazdan gələn gəlirlərin ədalətli bölgüsünü həyata keçirmişik. Yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə düşüb. Bu çox böyük nəticədir. Eyni zamanda Azərbaycan çox böyük bərpaolunan enerji potensialına malik olduğunu sübut edəcək. Yaxın zamanda 2 qiqavatlıq yaşıl enerjinin istehsalı gözlənilir. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə 10 qiqavatlıq bərpaolunan enerji imkanları var. Xəzər dənizinin 157 qiqavatlıq günəş və külək enerjisi potensialı var. Bütün bunlar onu sübut edir ki, Azərbaycan dünyaya yeni statusda təqdim olunacaq. Bir sözlə, bu tədbir Azərbaycanın potensialının bütün dünyaya təqdimatı baxımından unikal şansdır, biz də bu şansdan böyük məharətlə istifadə edəcəyik".

COP29 çərçivəsində rəsmi görüşlər də davam etdirilir. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev Marşal Adalarının nümayəndə heyəti ilə danışıqlar aparıb. Bildirilib ki, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev iyun ayında keçirilən iqlim görüşlərində işini davam etdirərək, noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində hər bir tərəfin gözləntilərini və ehtiyaclarını müzakirə etmək üçün Marşal Adaları nümayəndə heyəti və "Umbrella" qrupu koalisiyası ilə danışıqlar aparıb.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq çərçivəsində mütəmadi olaraq müxtəlif dövlətlərin nümayəndələri ilə də görüşlər keçirilir.



Əmək və əhalinin sosial müdafiəsi nazirinin mavini Anar Kərimov Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu UNFPA ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birgə təşkil olunan "29 İqlim söhbətindən 10-cusu: COP29-a gedən yol" adlı tədbirdə çıxışı zamanı deyib ki, Azərbaycan həqiqətən də COP29 gündəliyinə sadiqdir. A.Kərimov dayanıqlı inkişaf kursunun müəyyənləşdirilməsi zamanı strateji planlaşdırmada demoqrafik meyllərlə bağlı yanaşmaların inteqrasiyasının zəruriliyini vurğulayıb: "İqlim dəyişikliyi və demoqrafik tendensiyalar arasında əlaqənin müəyyən edilməsi iqlim dəyişikliyinin təsirlərini daha yaxşı idarə etməyə kömək edir".

UNFPA-nın Azərbaycan üzrə ölkə direktoru Mariam Xan qeyd edib ki, iqlim dəyişikliyi doğum, miqrasiya və ölüm hallarının hər bir aspektinə təsir göstərir: "Hər bir insanın ətraf mühitə də təsiri var. Bunlar bizim şəxsi seçimlərimiz və verdiyimiz qərarlardır. Buna görə də iqlim dəyişikliyinə qarşı mübarizə vacibdir".

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva isə qeyd edib ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədr seçiləndən bəri müxtəlif sektorlarda resursların əhəmiyyətli dərəcədə səfərbər edilməsi müşahidə olunur. V.Andreyevanın sözlərinə görə, iqlim dəyişikliyi dünyada demoqrafik dinamikaya təsir göstərir.

Cari ilin 11-22 noyabr tarixlərində ölkəmizdə baş tutacaq COP29 konfransı çərçivəsində aktiv iqlim fəaliyyəti ilə planetimizə müsbət təsirlərə əsaslı töhfələrin verilməsi, eyni zamanda paytaxtımıza üz tutacaq on minlərlə xarici qonağın ən yaxşı təcrübə və qonaqpərvərliklə qarşılanmasının təmin edilməsi istiqamətində göstərilən səylərlə yanaşı, həmçinin tədbirin paytaxt və ölkəmizə təsirləri də dəyərləndirilməkdədir.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, bu istiqamətdə COP29 Azərbaycan Əməliyyat Şirkəti növbəti layihəyə start verərək, ekoloji maarifləndirmə və iqlim dəyişmələri istiqamətində gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə COP29 Akademiyasının fəaliyyətə başladığını elan edir.

Akademiyanın yaradılması təşəbbüsü iqlim və dayanıqlılıq mövzularında peşəkar səriştələr, liderlik, dərin bilik nümayiş etdirən və fərqlənən universitet məzunlarını tanımaq və dəstəkləməyi, ölkənin parlaq gəncləri vasitəsilə dayanıqlılığın əhəmiyyəti barədə cəmiyyətin məlumatlandırılmasını hədəfləyir.

Bu proqram iştirakçılara mentorluq, davamlı peşəkar inkişaf və özünü inkişaf üçün imkanları təklif etməklə iştirakçıların dayanıqlılıq sahəsində biliklərə yiyələnməsi, bu biliklərin həmyaşıdları, ailələri və ictimaiyyət ilə paylaşmaları üçün bir platforma rolunu oynayacaq.

İstənilən ixtisas sahəsi üzrə məzunların müraciətlərini qəbul edəcək Akademiya qeydiyyatdan keçən gənclər üçün ünsiyyət, layihələrin idarəedilməsi, peşəkar davranış kodeksi və s. kimi yumşaq bacarıqlara yiyələnmək üçün müvafiq mütəxəssislərin iştirakı ilə seminarlara qatılma imkanı yaradacaq. COP29 Akademiyasının iştirakçıları Əməliyyat Şirkəti tərəfindən işlə təmin edilərək COP29 tədbirinin təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb ediləcəklər.

2023 və 2024-cü illərdə akkreditə olunmuş universitetlərdən məzun olan, Azərbaycan Respublikasının vətəndaşlığını daşıyan və əmək fəaliyyəti ilə məşğul olmayan, sosial aktiv, xarici dil bilikləri yüksək olan bütün namizədlər 22 iyun 2024-cü il tarixinədək linki vasitəsilə ərizə formasını dolduraraq qeydiyyatdan keçə bilərlər. Proqram tələblərinə əsasən seçilən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar.

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



## Meyiti aşkarlanan hərbçimiz qətlə yetirilibmiş

**Naxçıvanda itkin düşərək meyiti aşkarlanan hərbçimizin ölümü ilə bağlı cinayət işinin istintaqı davam edir. Musavat.com xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.**

Bildirilib ki, iyunun 9-da naməlum şəraitdə itkin düşmüş Müdafiə Nazirliyinin N saylı hərbi hissəsin hərbi qulluqçusu, əsgər Hüseynov Ceyhun Tofiq oğlunun meyitinin 2 gün sonra Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt yaşayış məntəqəsi istiqamətində yerləşən ərazidə aşkar edilməsi faktı üzrə Naxçıvan hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.12-ci (ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə) maddəsi ilə başlanmış cinayət işinin ibtidai istintaqı davam etdirilir.

Cinayət işi üzrə məhkəmə-tibbi, kompleks məhkəmə-ballistik, daktiloskopik və trasoloji ekspetizalar təyin edilib, hadisə yerinə və meyitə baxış keçirilib, şahidlər dindirilib, habelə, iş üzrə əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülərək təxirəsalınmaz zəruri istintaq hərəkətləri icra olunur.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu hadisə ilə əlaqədar əsgərimizin ailəsi və yaxınlarına dərin hüznlə başsağlığı verərək bildirir ki, cinayət işi üzrə qanunvericiliyin tələblərinə uyğun olaraq bütün zəruri tədbirlərin görülməsi və ictimaiyyətə əlavə məlumatın verilməsi təmin olunacaq", - deyə məlumatda qeyd olunub.

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

# Paşinyandan separatçılara ittiham və ironiya, yoxsa...

**Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdəki son çıxışı zamanı erməni separatçıların tez təslim olmasından və silahların Azərbaycana verilməsindən narazılığını bildirib. Onun sözlərinə görə, “Qarabağın klerikal-feodal elitası iki saat ərzində təslim olub və bir neçə milyard dollar dəyərində, erməni xalqının məhrumiyyətləri bahasına əldə edilmiş silah-sursat Azərbaycana təzə və yağ içində verilib”.**

## Terrorçu dəstələr silahları Bakıya yox, İrəvana təhvil verməli idilər? - erməni baş nazirdən yeni absurd

“Siz Ermənistanda hakimiyyəti dəyişə bilməyəcəksiniz, gücsüzsünüz”, - Paşinyan ardınca bildirib.

“Erməni xalqının məhrumiyyətləri bahasına əldə edilmiş” nə deməkdir? Qarabağdakı bir ovuc erməni bir neçə milyard dollarlıq silah-sursata necə, hansı yolla malik ola bilərdi? Əlbəttə ki, ritorik suallardır.

Bu, bir daha İrəvanın Azərbaycana qarşı illərlə işğalçı siyasət apardığını, torpaqlarımızın hansısa mifik “özünümüdafiə ordusu” tərəfindən deyil, məhz Ermənistan tərəfdən işğal edildiyini təsdiqləməklə yanaşı, kapitulyant ölkə rəhbərliyinin ağıllanmadığını göstərir.

Nikol Paşinyanın yuxarıdakı açıqlaması konkret nəyin təzahürüdür, nəyə işarədir? Belə bir hakimiyyətlə sülh müqaviləsinin imzalanması mümkünmü?



Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov “Yeni Müsavat”a açıqlamasında vurğuladı ki, Ermənistan baş naziri Nikol Paşinyan bu bəyanatı Qarabağdan qaçıb getmiş erməniləri hakimiyyətə qarşı istifadə etmək istəyən separatçılara ünvanlayıb: “Qarabağdan qaçmış ermənilər yerli separatçıların əlində Paşinyan hakimiyyətinə qarşı istifadə edilə biləcək əsas güc ola bilər. Paşinyan isə Qarabağdan qaçıb getmiş ermənilərin yerli separatçılara mümkün qədər qoşulmamasını istəyir. Separatçılar yaxşı anlayırlar ki, Qarabağ erməniləri olmasa hakimiyyətə qarşı etirazları təşkil etmək və onların kütləviliyini təmin etmək mümkün deyil. Bu gün Ermənistanda böyük əksəriyyət, ermənilər Paşinyanın kursunu dəstəkləyir, insanlar artıq tarixi yalanlara deyil, reallıqlara qiymət verməyə başlayıblar. Ağlı başında olan hər bir kəsin belə davranması da tam normalır. Ermənilər ”böyük Ermənistan", “ən qədim xalq”, “ən dahi millət” kimi tarixi yalanların onları son 200 ildə hara gətirib çıxardığının fərqində olmağa başlayıblar. Minlərlə övladlarını bu yalanlara qurban verənlər artıq bunun nə qədər mənasız bir yol olduğunun fərqindədirlər. Bax, Paşinyanın ətrafında olan da bu toplumdur və bu toplum artıq böyük çoxluğa çevrilib və elə 44 günlük müharibədəki ağır məğlubiyyətdən dərhal sonra öz səsini Paşinyana verib ona böyük üstünlüklə qələbə qazandıran da bu toplumdur.

Bütün bunlar ortada olduğu təqdirdə Paşinyanın Qarabağdakı ermənilərlə bağlı bəyanatlarının hədəfi bəllidir. Paşinyan sadəcə olaraq hərdən belə siyasi gedişlərlə ona qarşı olan separatçıları ifşa etməyi və Qarabağdakı məğlubiyyətdə onların günahkar olduqlarını cəmiyyətin “yadına salmağı” özünə borc bilir".

Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva bildirdi ki, Ermənistanın baş nazirinin parlamentdəki son açıqlamaları özünütəkzibin ən gülünc formalarındandır: “Nikol Paşinyan bir daha təsdiqlədi ki, Azərbaycan torpaqlarını məhz Ermənistan Respublikası işğal edib. Baş nazirin separatçıların əlindəki silahların Azərbaycana təhvil verilməsi ilə bağlı səsləndirdiyi fikirlər isə heç bir məntiqə sığmır. Terrorçu və separatçı birliklərin heç bir çıxış yolu yox idi. Təslim olmasaydılar, məhv ediləcəkdilər. Çünki onlar Qarabağın erməni əhalisi üçün də böyük təhdid sayılırdılar. Bunu Qarabağı tərk edən və hələ də orada yaşayan Azərbaycanın erməni əsilli əhalisi də dəfələrlə dilə gətirib. Nikol Paşinyan separatçıların bu addımından öz siyasi məqsədləri üçün istifadə edir. Rəqibi saydığı ”qara keşiş"ə bildirmək istəyir ki, Azərbaycan xalqı keşiş üçün “müqəddəs sayılan tilsimli düymələri” çoxdan sındırıb. Yəni, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları əzəli və əbədi Azərbaycanındır. Ermənistanın baş naziri tez-tez öz dediklərini inkar edən birisidir. Onun üçün siyasi meyarlar və politik dəyərlər anlayışı yoxdur. Ona görə ki, hakimiyyətə küçədən gəlib. Belə bir “rəhbərlə” sülh sazişi imzalasan da, onun qüvvədə qalması o qədər də inandırıcı görünmür. Yenə də təxribatlara əl atacaqlar. Paşinyan parlamentdəki çıxışında Rusiyadan və onun zorakı ittifaqlarından çıxacağını da dilə gətirdi. Özü də bu fikrini separatçılarla bağlı nitqindən sonra söylədi. Nikol Vovayeviç bununla söyləmək istədi ki, separatçılar məhz rusların təkidi ilə silahları yerə qoyublar".

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov erməni tərəfin reallıqlarla hər keçən gün barışdığını söylədi: “Rəsmi İrəvan məğlubiyyətinə haqq qazandırmağa çalışır. Baş nazir Nikol Paşinyanın açıqlaması da bu konteksdən qiymətləndirilməlidir. Ermənistanda aksiyaların davam etdiyi bir vaxtda bu açıqlama daha çox daxili auditoriyaya hesablanıb. Fikrimcə, uzun müddətdən sonra Naxçıvan istiqamətində atəşkəsin pozulması da məhz ictimai rəyi yayındırmaq məqsədlidir. İrəvan balanslı davranmağa çalışır. İstəyir ki, daxili auditoriya arasında sabitliyi qorusun. Əslində başqa yolu da yoxdur. Çünki Paşinyanın həm fəaliyyəti, həm də şəxsi təhlükəsizliyi təhdid altındadır. Amma Ermənistan hakimiyyəti onu da başa düşür ki, Azərbaycanla sülh imzalamaqdan başqa yolu yoxdur. Çünki proseslər də göstərir ki, zaman İrəvanın əleyhinə işləyir”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**




## Putin: “Biz artıq geri dönüşü olmayan nöqtəyə yaxınlaşmışıq”

**“Dünyada heç bir ölkə ”Qərb diplomatiyası"nın qurbanları siyahısına daxil olmaqdan sığortalanmayıb".**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşdə bildirib.

Onun sözlərinə görə, Qərbin eqoizmi və təkəbbürü son dərəcə təhlükəli bir vəziyyətə gətirib çıxarıb:

“Biz artıq geri dönüşü olmayan nöqtəyə yaxınlaşmışıq. Dünyada strateji sabitlik məhz Vaşinqton tərəfindən pozulub”, deyə Putin vurğulayıb.

Rusiya Prezidenti qeyd edib ki, ötən əsrin sonunda dünyanın etibarlı təhlükəsizlik sistemi qurmaq üçün unikal şansı olub.

“Rusiya Federasiyası buna sadiq idi, lakin Qərb başqa cür hesab etdi. Rusiya daim Qərbin kursunun səhv olduğunu göstərir, sadəcə tənqid etmir, həll yollarını təklif edir. Rusiya Federasiyası dəfələrlə hamı üçün optimal beynəlxalq təhlükəsizlik sistemi yaratmaq üçün həll yolları təklif edib, lakin Qərb onun ideyalarına məhəl qoymayıb”.

Putin əlavə edib ki, təhlükəsizliyi təmin etmək üçün Qərb sxemi işləmir, “NATO tipli diplomatiya” əks nəticə verir.



## Daha 254 hərbçinin meyiti Ukraynaya qaytarılıb

**Repatriasiya tədbirləri nəticəsində müharibədə həlak olan 254 ukraynalı hərbçinin meyiti qaytarılıb.**

APA xəbər verir ki, bu barədə Ukraynanın Hərbi Əsirlər üzrə Koordinasiya Qərargahının “Telegram” hesabında məlumat verilib.

“Donetsk istiqamətində döyüşlərdə həlak olan 221, Zaporojye istiqamətində döyüşlərədə həlak olan 25, Luqansk istiqamətindən həlak olan 4 ukraynalı hərbçinin meyitlərini, eyni zamanda Rusiya ərazisindəki morqlardan təhvil alınmış 4 əsgərin meyitini vətənə gətirmək mümkün olub. Ukrayna Silahlı Qüvvələri repatriasiya edilmiş cəsədləri və qalıqları müvafiq dövlət qurumlarına verəcək və hüquq-mühafizə orqanlarının nümayəndələri və məhkəmə-tibb ekspertləri həlak olanların şəxsiyyətini müəyyənləşdirəcəklər. Müdafiəçilərimizin cənazələri şəxsiyyəti müəyyənləşdirildikdən sonra ləyaqətlə dəfn olunmaq üçün ailələrinə təhvil veriləcək”, məlumatda qeyd olunub.



# Müəllimlərin kəsildiyi suallar

Zamin HACI
zaminhaci@gmail.com

**Məktəbin yanından keçirdim, həyətdə uşaqların məzun törənidir. Şostakoviçin məhşur valsı səslənir. O musiqi ki, Stenli Kubrikin "Geniş qapalı gözlərlə" mistik-dramatik, sonu sirrli filminin saundtreklərindən biridir. Niderlandlı bəstəkar-dirijor Andre Ryo-nun ifasında bu musiqidə müdhiş bir kədər var. Prinsipcə, sezon finalı üçün mahnı seçmiş şəxsin zövqünə həsəd aparmaq olar. Hər şey uyğun gəlir. Bizim uşaqların taleyi elə o film kimi qaranlıqdır. İndi kimsə qıraqdan çıxıb "taleyini öncədən bilən varmı" desə, mən dərhal onunla razılaşaram. Son çağlar hamı ilə razılaşıram.**

Vals bitir, növbəti mahnı gəlir, lakin səs o qədər pis yazılıb ki, kimin oxuduğu məlum deyil: "Mən güləm, gül üzüm heç zaman solmaz, Mənim kimi gözəli sevməmək olmaz". Ax-vax. Təhsil Nazirliyi hara baxır, camaat həccə gedən bir dövrdə məktəbdə belə mahnı oxutmaq hansı adət-ənənələrimizə uyğundur?

Əlbəttə, zarafat edirəm. Təhsil Nazirliyimizə də göz dəyməsin. Müqayisə üçün Türkiyəyə baxın, məni anlayarsınız. Orda qız uşaqlarının geyiminə görə məzun törəninə jandarma çağırmışdılar. Qardaş ölkəmiz sürətlə iranlaşır. Başqa bir şey gözləmək də çətindir. Deyirlər İranda molla rejiminin əsas dayağı... bizim "azərbaycanlılar" dediyimiz tayfa, yəni, türklərdir. Hətta istibdaddan bezmiş farslar sistemi "türk molla rejimi" adlandırırmış. Deyənin yalançısı olum.

Əlbəttə, məzun və ümumiyyətlə məktəb törənləri üçün repertuar seçimi həmişə çətindir. Kimsə mütləq mız qoyacaqdır. "Məktəb illəri", "Yaşa Azərbaycan"a nə qədər qulaq asasan? Təzə bir şey də çıxmır. Kimsə uşaqları qınasa, "bizim vaxtımızda..."-filan donquldansa dərhal ağzının üstündən vurun, çünki keçmişdə bu işlər lap pis idi. Biz 1989-cu ildə məktəbi bitirəndə uşaqlar "Vesna" maqnitofonuna təzə moda minən meyxanalar qoymuşdular, üstəlik hamısı arqo sözlərlə aşıb-daşırdı.

Bir populyar demaqoji var, deyirlər: "Qaranlığı söyməkdənsə, bir şam yandır". Bunu adətən tənqidi xoşlamayan oğrular sevir. Ancaq mən hələlik afyorizmi qəbul edirəm və müəllim işləmək istədiyimi buradan hörmətli nazirliyin nəzərinə çatdırıram. Pedaqoji təhsilim yoxdur. Ancaq bu, niyə mənim təhsil nurumu, öyrətmək alovumu söndürməlidir? Yaxşı olar müəllimlərin işə qəbulu imtahanlarına pedaqoji təhsili olmayan şəxslər də buraxılsın. Vallah, mən bu həyatımda müəllim olmayan adamlardan elə şeylər öyrənmişəm, onları yüz ilin pedaqoqlarından əxz edə bilməzdim. Müəllim olmaq fikrinə düşməyimin başqa, daha ciddi səbəbi də var.

Bugünlərdə ibtidai sinif müəllimlərinin sertifikatlaşdırma imtahanı nəticələri açıqlandı. Hamı şoka düşdü. Təxminən 7200 müəllim imtahan vermişdi, 4000 nəfər kəsilmişdi. Kəsilənlərin də 3500-ü ibtidai sinif, 480-i Azərbaycan dili və ədəbiyyat müəllimi idi. Məndə maraq yaranmışdı, görəsən bu müəllimlər hansı suallara cavab yazmaqda belə çətinlik çəkmişlər.

İnternetdə xırda araşdırma apardım, o sualların bəzisini tapdım və etiraf edirəm, gözüm kəlləmə çıxdı. Məktəbimizin bu acınacaqlı halı hətta mənim də ağlıma gəlməzdi.

Buyurun, 3500 ibtidai sinif müəllimimizin həll edə bilmədiyi o suallarla siz də tanış olun: "Fəaliyyət" sözünü kəsib torbaya tökdülər. Saitlərin çıxma ehtimalını tapın", "Düzbucaqlının eni 8 sm, sahəsi 208 kv.sm olarsa onun uzunluğunu tapın", "23456 ədədində neçə yüzlük var", "Perimetri 24 sm olan kvadratın sahəsini tapın", "Kilosu 7 manat 50 qəpiyə 5 kilo meyvə alındı, 50 manat ödəndi. Alıcıya neçə manat qaytarılmalıdır?"

Bunların bəzisini tapmaq üçün heç qələm-dəftər lazım deyil. Və bu cür asan sualları bilməyən 3500 adam müəllim işləyirmiş. Hər ibtidai sinif müəllliminə orta hesabla 20 şagirddən hesablayaq. 70 min uşaq edir! Bir ibtidai sinif müəllimi də 4 il eyni sinifi aparır, əgər belə müəllim 8 il işləyibsə, 140 min uşağın vəziyyətini fikirləşin. Hesablamanı dayandırıram, çünki məni tər basdı.

Əgər mən bu suallara cavab verirəmsə, niyə müəllim olmayım?

---

**2024-ün təxminən yarısı artıq arxada qalıb. Rəsmi İrəvanın Bakı ilə sülh sənədi məsələsində nala-mıxa vurma "taktikası" isə davam edir. Son olaraq, baş nazir Nikol Paşinyan deyib ki, sənədin mətni, demək olar ki, hazırdır və imzalanma bir ay ərzində reallaşa bilər.**



# Sülh müqaviləsi harada, nə vaxt? - 6 aydır açıq qalan sual...

## İrəvanın nala-mıxa vurma "taktikası" davam edir, ABŞ isə Kremlə görə tərəfləri tələsdirir - analitiklərin qeydləri...

Onun sözlərinə görə, Azərbaycanla sülh sazişinin mətni kifayət qədər yetkindir. Paşinyan sülh sazişi olmadan Azərbaycanla kommunikasiyaların açılmasını da mümkün sayıb. "Praktiki addımlarla real dünyanı formalaşdırmaq, ondan sonra müqavilə imzalamaq mümkündür", - baş nazir qeyd edib. Lakin ardınca o iddia edib ki, Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbini danışıqlarla əlaqələndirmək guya sülh prosesini əngəlləmək cəhdidir: "Mən 2018-ci ildə, sonra 2019-cu ildə konstitusiyanın dəyişdirilməsindən danışdım və bu, yalnız demokratik islahatlarla bağlıdır. Biz dedik ki, konstitusiyanın dəyişdirilməsi danışıqların bir hissəsi ola bilməz".

Nəhayət, Ermənistanın sülh ritorikasının səmimiliyini şübhə altına alan daha bir məqam bu açıqlamalar fonunda, uzun fasilədən sonra sərhədimizin - Naxçıvanın 3 rayonunun iyunun 14-də Ermənistan tərəfdən atəşə tutulmasıdır...

Bu arada ABŞ Dövlət katibinin müavini Ceyms Obrayen "Azadlıq" radiosunun erməni xidmətinə müsahibəsində bildirib ki, İrəvanla Bakı arasında sülh müqaviləsi imzalamaq imkanı var, çünki Rusiya hazırda çətinliklə üzləşib, bəlkə də bir ildən sonra bu cür çətinlikdə olmayacaq. "Ona görə də fürsət pəncərəsi var. Biz indi bunun üzərində işləyirik", - diplomat əlavə edib. Yəni o, Rusiyanı sülh prosesinə əsas əngəl sayıb. Bəs ABŞ-ın özü? Ümumiyyətlə bölgədə marağı olan böyük güclər ikitərəfli formatda sülh müqaviləsinin imzalanmasına imkan verəcəkmi, bunu rahatca "həzm" edəcəkmi? Söhbət təbii ki, həm də Rusiyadan gedir. O Rusiya ki, Paşinyan hökuməti dönəmində Ermənistanda ona etimadsızlıq faktiki pik həddə çatıb. Ümumiyyətlə, Rusiya nə dərəcədə sülh sənədinin imzalanmasında maraqlıdır, əgər bu ölkənin yüksək çinli rəsmiləri hələ də Nikol Paşinyanı Qarabağı Azərbaycan ərazisi saydığı üçün bağışlaya bilmirsə...

Analitik Elxan Şahinoğluya görə, Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdə çıxışı zamanı Azərbaycanla bir ay ərzində sülh sazişinin imzalanması və kommunikasiyaların açılması mümkünlüyünü bildirməsindən bir neçə saat sonra Naxçıvanın 3 yaşayış məntəqəsinin Ermənistanın silahlı qüvvələrinin atəşinə məruz qalmasını necə başa düşmək lazımdır: "Bu Azərbaycanla yanaşı Nikol Paşinyanın özünə qarşı da təxribatdır. Fevralın əvvəlində oxşar təxribat baş vermiş və Azərbaycan hərbçilərinə atəş açılan erməni postu dağıdılmışdı. İndi biz yenə də hərbçilərimizə atəş açan postu dağıtmaq məcburiyyətində qala bilərik. Həmin hadisənin təxribat olduğunu Nikol Paşinyan da etiraf etmişdi. Fevral ayındakı təxribatın Paşinyanın orduya tam nəzarət edə bilməməsinin sübutu idi. Paşinyan orduda "5-ci kolonun" varlığını etiraf edib, ancaq bu azdır, Ermənistan ordusu təxribatçılardan təmizlənməyincə bu Paşinyanın da arzuladığı sülhə əsas təhlükə olacaq. Belə çıxır ki, sülh sazişi imzalananadan sonra da Ermənistan ordusundakı təxribatçıların Azərbaycanın mövqelərinə atəş açacaqlarından sığortalanmamışıq".

Bundan əlavə, politoloqun fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsi imzalanmazdan əvvəl Azərbaycanla kommunikasiyaların açılmasını mümkün hesab etdiyini bildirsə də, Ermənistanın yeni Konsitusiyasının qəbulunu sonraya saxlayır: "O rəsmi Bakının Ermənistan Konstitusiyasının dəyişdirilməsiylə bağlı tələbini ölkəsinin daxili işlərinə qarışması kimi qiymətləndirib. Həmin Konstitusiyada qonşu ölkələrə ərazi iddiaları varsa, bu daxili məsələ deyil. Ermənistan Konstitusiyasında Azərbaycana və Türkiyəyə ərazi iddialarını əks etdirən bəndlər oradan götürülməyənə qədər bölgədə sülh və əməkdaşlıq mümkün deyil. Bu haqda Nikol Paşinyanın özünün də açıqlamaları var. Aydındır ki, yeni Konstitusiyanın qəbulu və referendumun müəyyənləşdirilməsi zaman tələb edir. Ancaq Azərbaycanın və Türkiyənin gözləntisi qonşulara qarşı ərazi iddialarını əks etdirən Konstitusiyanın dəyişdirilməsiylə bağlı İrəvanda müzakirələrin başlaması və bununla bağlı komissiyanın formalaşdırılmasıdır".

Ekspertin sözlərinə görə, amerikalı diplomatlar Paşinyana məsləhət görüblər ki, Zəngəzur dəhlizinin açılmasını ləngitməkdə davam etsə, Azərbaycan İran ərazisindən keçən Araz dəhlizinə üstünlük verəcək: "Bu həm ABŞ-ın maraqlarına ziddir, həm də Ermənistanı Orta dəhliz layihəsindən kənarda qoyacaq. Paşinyanın məlum açıqlamasından bir gün əvvəl Ermənistan parlamentinin sədri Alen Simonyan da dəhlizin açılması üçün neytral ölkələrin və beynəlxalq təşkilatlardan birinin bu prosesə cəlb ediləcəyini söyləmişdi".

Hüquq müdafiəçisi Xəzər Teyyublu hesab edir ki, vasitəçisiz danışıqlar gedir və sülh sənədinin mətni razılaşdırılmaqdadır: "ABŞ və Avropa İttifaqı sülh müqaviləsinin imzalanmasına dəstək bəyanatları səsləndirirlər. Rusiya isə kömək etməyə hazır olduğunu bildirir. Hələ ki bizə əngəl yaradılmır. Bu, yaxşı tendensiyadır. Eyni zamanda, Paşinyan da Minsk Qrupunun öldüyünü təsdiqlədi. Əgər Ermənistan sülh sazişinə qol çəkib, növbəti mərhələdə qanunvericilik aktlarında ərazi iddiaları ilə bağlı dəyişiklik edəcəksə, bunu qəbul etmək olar. Amma Ermənistana nə dərəcədə güvənmək olar? Fikrimcə, hazırda yaxşı fürsət yaranıb və ilk növbədə İrəvan bu şansı dəyərləndirməlidir. Çünki sonra regionda elə hadisələr baş verə bilər ki, sülh danışıqları dalana dirənər, kənar güclərin müdaxiləlri nəticəsində heç nə əldə etmək olmaz. Odur ki, vəziyyəti qiymətləndirmək lazımdır. Digər tərəfdən isə böyük güc mərkəzləri sülh sənədinin açılmasında ona görə maraqlıdırlar ki, koridor açılsın, nəhəng iqtisadi proyektlər işə düşsün. Ukrayna müharibəsi dünya iqtisadiyyatını silkələyir. Bu problem həll olunmalıdır, fakt budur ki, düyün yaradıb".

❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024



# Türkiyə NATO-dan çıxacaq iddiası - qardaş ölkə yol ayrıcında?

## Rusiyalı və Azərbaycanlı politoloqlardan ilginc proqnoz

**"Türkiyə xarici işlər naziri Hakan Fidanın BRİKS-lə bağlı açıqlaması tarixi, faktiki olaraq dönüş anıdır". Bunu Rusiyalı ultra-mühafizəkar filosof və "Rus dünyası"nın ideoloqu, avrasiyaçı Aleksandr Duqin deyib (Axar.az).**

"Bu oriyentasiya ilə Türkiyə müstəqilliyini gücləndirəcək. Bütün çətinliklərə baxmayaraq, Türkiyə müxtəlif qütblər arasında tarazlığı qoruyub saxlaya bildi. Ancaq bir adam eyni anda iki stulda otura bilməz. Türkiyənin balans siyasəti bu şəkildə davam edə bilməz. Türkiyə yolayrıcına yaxınlaşır", - Duqin bildirib.

Onun sözlərinə görə, Türkiyənin BRİKS üzvlüyü onun NATO-dan çıxmasına gətirib çıxaracaq.

Qeyd edək ki, Türkiyə xarici işlər naziri Hakan Fidan Ankaranın BRİKS-ə üzv olmaq üçün müraciət etdiyini bildirmişdi.

Duqin haqlımı? BRİKS-ə qoşulmaq Türkiyənin NATO-dan ayrılmasını sürətləndirə bilərmi? Qardaş ölkə həqiqətənmi yolayrıcına (Qərblə Rusiya-Çin arasında) seçimə yaxınlaşıb? Azərbaycana mümkün təsirləri nə ola bilər?

Politoloq Anar Əliyev "Yeni Müsavat"a bildirdi ki, Türkiyə xarici işlər naziri Hakan Fidan təmsil etdiyi ölkəni BRİKS-ə üzv olmaq istəyi və təşkilata üzv dövlətlərin bu istəyə isti münasibətilə bağlı fikir açıqlayıb. Bu, Türkiyə üçün çox ciddi perspektivlər və gələcək inkişaf, xüsusilə də iqtisadi sahədə böyük əməkdaşlıq perspektivləri vəd edən platformadır. Türkiyənin üzünə böyük qapıların açılması imkanlarıdır: "Hesab edirəm ki, Türkiyənin BRİKS-ə üzv olmaqla bağlı mövqeyi həm də Avropa İttifaqı ilə bağlı yaranmış qeyri-müəyyən və qeyri-ciddi mövcud vəziyyətə alternativdir. Çünki 1999-cu ildən Türkiyə Avropa İttifaqına qoşulmaqla bağlı müraciət etsə də ötən 25 il ərzində Türkiyə qarşısında kifayət qədər süni maneələr yaratmaqla məqsədli şəkildə Türkiyənin bu birliyə üzvlüyünə maneələr yaradılıb. Türkiyəyə ayrı-seçkilik hər zaman özünü göstərib. Bu bir daha türk müsəlman dövlətinin xristian ittifaqında-Avropa İttifaqında xoş qarşılanmadığını nümayiş etdirir. Hesab edirəm ki, son dövrlər Türkiyənin Avropa İttifaqına ciddi alternativə, rəqibə çevrilmiş BRİKS təşkilatına üzvlüklə bağlı mövqe ortaya qoyması nəhayət ki, Türkiyənin düzgün seçim etdiyini, qəbul edilməyən yerdə olmağa cəhd etməkdənsə daha böyük potensiala sahib tərəfdaşlarla əməkdaşlığı özündə əks elətdirən birliyə qoşulmaq daha böyük nəticələr doğuracaq".

Politoloq qeyd etdi ki, eyni zamanda BRİKS-ə üzv dövlətlərin həm Rusiya, ÇİN, Brazilya, Hindistan və Cənubi Afrika Respublikasının Türkiyəyə münasibəti, Türkiyənin bu təşkilata üzvlüyünə yanaşması çox müsbətdir. Dünyanın işlənməmiş təbii sərvətlərinin təxminən 60 faizə yaxınını, dünya əhalisinin 40 faizdən çoxunu özündə birləşdirən, dünya iqtisadiyyatının 40 faizdən çoxunu təşkil edən dövlətlərin birləşdiyi bu təşkilat Türkiyənin iqtisadi gücünü daha da artırmış olacaq: "Amma maraqlıdır ki, Türkiyənin BRİKS-ə qoşulacağı ilə bağlı mövqeyi qətiləşdikdən sonra yaxın müddət ərzində, xüsusilə bu il Türkiyənin oraya üzv olma şansları artdıqca bəzi dairələrdə Türkiyənin seçim qarşısında, yol ayrıcında olduğu, Qərblə Rusiya Çin arasında seçim etmək məcburiyyətində qaldığı ilə bağlı mövqelər sərgilənir. Xüsusilə də NATO-ya alternativ kimi BRİKS qiymətləndirilir. Hesab edirəm ki, BRİKS heç bir halda NATO-ya alternativ deyil. Çünki NATO-dan fərqli olaraq BRİKS hərbi blok deyil, dövlətlərin daxili işlərinə müdaxilə etmədən, siyasi proseslərə qarışmadan daha çox iqtisadi əməkdaşlığı özündə əks etdirən təşkilatdır. Amma təbii ki, BRİKS daha çox Rusiya və Çinin, müəyyən mənada Hindistanın nəzarəti altında olan, daha çox onların iqtisadi maraqlarına xidmət eləyən bir birlik olduğu üçün Türkiyənin iqtisadi yönünün Qərbdən daha çox bu təşkilata və bu təşkilatın üzvlərinə istiqamətləndiyini qeyd edə bilərik. Bunun isə təbii ki, Qərb tərəfdaşları arasında xoş qarşılanmayacağı əvvəlcədən məlum idi".

A.Əliyev deyib ki, Türkiyə üzərinə düşən məsuliyyəti, xüsusilə də tərəfdaş məsuliyyətini hər zaman çox ciddiyyətlə yerinə yetirməyə çalışıb. Amma təəssüf ki, Qərb müttəfiqləri, NATO müttəfiqləri Türkiyəyə münasibətdə hər zaman ikinci növ dövlət gözü ilə baxıblar: "Türkiyəni bir sıra hallarda yalnız öz maraqları üçün alət kimi görüblər. Türkiyənin milli təhlükəsizliyi üçün çox ciddi problemlər kimi qiymətləndirilən terror təşkilatlarına münasibətdə nəinki bütövlükdə Qərb, hətta konkret olaraq NATO müttəfiqləri belə, həmin terror təşkilatlarına dəstək veriblər. Bununla da Türkiyə üçün ciddi təhdidlər formalaşdırıblar. Təəssüf ki, bu prosesin başında dayanan güclərdən birincisi ABŞ-dır. Ona görə də Türkiyənin nəhayət milli maraqlardan çıxış edərək Qərbin əlinin altında alət olmaqdan xilas olmaq istiqamətindəki addımları Qərbdə hansı reaksiya doğurmasından asılı olmayaraq çox düzgündür. Türkiyənin BRİKS-ə bərabərhüquqlu üzv seçilməsi bu gün Türkiyə iqtisadiyyatına, milli valyutasına qarşı həyata keçirilən xain hücumlardan sığortalanmaq üçün də ciddi bir iqtisadi alətə çevrilə bilər. Bu, həm də Türkiyənin nüfuzuna təsir etmiş olar".

Politoloqun sözlərinə görə, təbii ki, Türkiyə güclənəcəksə bu, Azərbaycanın da gücü deməkdir. Türkiyəyə təhdidlər azalacaqsa və ya Türkiyə iqtisadiyyatına Qərbdən gələn təhdidlərə qarşı immunitet güclənəcəksə bu, həm də Azərbaycanın gücünün artması deməkdir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İsrail Fransanın təklif etdiyi üçtərəfli formatda iştirak etməyəcək

**İsrail Fransanın təklif etdiyi üçtərəfli formatda iştirak etməyəcək.**

APA xəbər verir ki, bu barədə İsrail müdafiə naziri Yoav Qallant "X" hesabında bildirib.



"Biz ədalətli müharibə apardığımız, xalqımızı müdafiə etdyimiz zamanda Fransa İsrailə qarşı düşmənçilik siyasətini həyata keçirdi. Bununla Fransa HAMAS-ın israilli uşaqlara, qadınlara və kişilərə qarşı törətdiyi vəhşiliklərə məhəl qoymadı. İsrail Fransanın təklif etdiyi üçtərəfli çərçivədə iştirak etməyəcək", - nazir bildirib.

Qeyd edək ki, Fransa Prezidenti Emmanuel Makron daha əvvəl jurnalistlərə açıqlamasında bildirmişdi ki, rəsmi Parisin təklif etdiyi eskalasiyanın qarşısını almaq və atəşkəs istiqamətində yol xəritəsində irəliləmək üçün İsrail, ABŞ və Fransanın iştirakı ilə üçtərəfli təmas qrupu prinsipi üzərində razılığa gəlinib və Fransa Livan hakimiyyəti ilə də eyni format barədə razılığa gəlməyə çalışacaq.



# Milyard dollarlıq kəşfin ilginc detalları

**Afrika ölkəsi Seneqal rəsmi olaraq neft ölkəsinə çevrilib.**

Musavat.com-un "TR Haber"ə istinadən xəbərinə görə, bu barədə Seneqalda neft qazma işlərinə başlayacaq Avstraliyanın "Woodside" şirkəti açıqlama verib.

Belə ki, bir neçə illik gecikmələrdən sonra şirkət Dakar sahillərində yerləşən Sanqomar dəniz yatağının istismarına başladığını elan edib.

Neft yatağından gündə 120 min barel neft hasilatı olacağı təxmin edilir.

Qeyd edək ki, Sanqomar Dakardan təxminən 100 km cənubda, 780 metr dərinlikdə yerləşir. Yataqda gündəlik hasilatın 100-125 min barel olacağı gözlənilir.

Məlumata görə, Avropa və Asiya bazarlarına uyğun hasil edilən xam neft milli bazarla yanaşı, xaricə ixrac üçün də nəzərdə tutulur. Neftin satışı ölkəyə 30 il ərzində bir neçə milyard dollar gəlir gətirəcək.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**

# Rusiya maliyyə sistemlərinə sanksiyalar ağırlaşır - Azərbaycana təsirləri

## Ekspert: "Hər hansı kollapsın yaranmayacağını söyləmək olar, ən azı ona görə ki, bu, gecikmiş sanksiyadır"

**İyunun 12-də ABŞ və Böyük Britaniya Rusiyaya qarşı sanksiya siyahısını genişləndirərək, bu dəfə siyahıya Moskva Valyuta Birjası Qrupunu da daxil ediblər. Bunun da nəticəsində Rusiyada dollarla birja ticarəti mümkünsüz hala gəlib.**

Moskva Valyuta Birjası qərardan dərhal sonra açıqlama yayaraq dollar və avro ilə ticarət əməliyyatlarını iyunun 13-dən dayandırdığını elan edib.

Rusiya Mərkəzi Bankı isə açıqlama yayaraq ABŞ dolları və avro ilə əməliyyatların birjadankənar bazarda davam etdiriləcəyini elan edib: "ABŞ-ın Moskva Birjası qrupuna münasibətdə məhdudlaşdırıcı tədbirlərin tətbiqi ilə əlaqədar olaraq, ABŞ dolları və avro ilə birja ticarəti və çatdırılma alətləri üzrə hesablaşmalar, eyni zamanda, bütün digər birja seqmentlərində və mübadilə üçün ticarət dayandırılır. Rubl və digər valyutalarda əməliyyatlar adi qaydada davam etdiriləcək".

ABŞ dolları və avronun rubla qarşı rəsmi məzənnələrini müəyyən etmək üçün Rusiya Bankı bank hesabatlarından və rəqəmsal birjadankənar ticarət platformalarından alınan məlumatlardan istifadə edəcək: "Şirkətlər və vətəndaşlar Rusiya bankları vasitəsilə ABŞ dolları və avro alqı-satqısını davam etdirə bilərlər. Vətəndaşların və şirkətlərin hesablarında və əmanətlərində olan ABŞ dolları və avrodakı bütün vəsaitlər təhlükəsiz olaraq qalır. Vətəndaşların və təşkilatların ABŞ dolları və avrodakı əmanətləri və hesabları üçün Rusiya Bankı tərəfindən yaradılmış əvvəlki emissiya rejimi saxlanılır".

İyunun 14-də Rusiya Bankı ilk dəfə birjadankənar əməliyyatlar əsasında dollar və avronun məzənnəsini elan edib.

Moskva Birjası Qrupunun və digər maliyyə qurumlarının sanksiya siyahısına salınması bir sıra ölkələrdən Rusiyaya pulköçürmələrində problemlərə səbəb olub. Qırğızıstanda kommersiya bankları Rusiyanın pul köçürmə sistemləri ilə işi dayandırdıqlarını bildirib. Onlar bildiriblər ki, texniki səbəblərə görə rublla köçürmələrin göndərilməsi və qəbulu, həmçinin Unistream sistemi vasitəsilə köçürmələrin göndərilməsi və qəbulu mümkün deyil.

Rusiyaya pulköçürmələrini həyata keçirən Astrasend, Contact, Zolotaya Korona və Sberbank Online-ın işində də bir sıra ölkələrdə fasilələ yaranıb.

İqtisadçı-ekspert Eldəniz Əmirov bildirir ki, ABŞ Rusiyanın əsas maliyyə axınlarını nəzarətə götürməyə çalışır: "Görünən odur ki, Rusiya Mərkəzi Bankı sanksiyaların müxtəlif təsirlərini modelləşdirərək bu cür ssenarilərə hazırlaşıb. Lakin ABŞ-ın əlində alətlər yetəri qədər olduğu üçün şübhəsiz ki, qarşıdakı aylarda daha yeni sanksiya mexanizmləri təqbiq ediləcəkdir.

Amma bir məsələni unutmaq olmaz ki, ayrı-ayrı ölkələr öz daxilində gizli iqtisadiyyatın çəkisini azaltmağa çalışsalar da, qlobal dünya çapında bu




baş vermir. Əksinə, getdikcə gizli razılaşmalar, gizli müştəri və təhcizatçılarla xüsusi maliyyə əməliyyatları, mürəkkəb dolaşdırıcı konfiqurasiyalar artır. Bu isə hazırki məqamda Rusiyaya sanksiyalardan yayınaraq ixrac-idxal əməliyyatları həyata keçirməyə, ordu təhcizatını dayandırmamağa və müharibəni davam etməyə kömək edir".

Politoloq Şahin Cəfərlinin fikrincə, Moskva Birjası Qrupuna qarşı tətbiq olunan sanksiyanı ən ciddi məhdudlaşdırıcı tədbir kimi qeyd etmək mümkündür: "Birja dünəndən etibarən dollar və avro (eləcə də Honkonq dolları) ilə ticarəti dayandırmağa məcbur oldu. Bundan sonra həmin valyutaların məzənnəsi birja xaricindəki platformalarda, o cümlədən "qara bazar"da formalaşacaq. Bunun Rusiya iqtisadiyyatına mümkün təsirləri barədə birmənalı fikirlər söyləmək çətindir.

Hər hansı kollapsın yaranmayacağını söyləmək olar, ən azı ona görə ki, bu, gecikmiş sanksiyadır və Rusiya Mərkəzi Bankı ötən müddətdə ehtimal olunan risklərə qarşı müəyyən hazırlıqlar görüb. Lakin mənfi təsirlər qaçılmazdır və rusiyalı ekspertlər ehtiyatla da olsa, bu barədə danışırlar. Onlar bildirirlər ki, ilk növbədə dollar və avro ilə hesablaşmalarda problem yaranacağı üçün idxal-ixrac əməliyyatlarında çətinliklər müşahidə olunacaq. Bu əngəlləri aşmaq üçün qeyri-leqal sxemlərin və mexanizmərin işlənib hazırlanacağına şübhə yoxdur, lakin bu, kölgə iqtisadiyyatının həcmini böyüdəcək, korrupsiyanın miqyasını da o cümlədən. İdxal defisiti baş verərsə, ölkə içərisində böyük rubl kütləsi yığılıb qalmış olacaq, bu isə inflyasiyaya təkan verə bilər".

Qeyd edək ki, Rusiyaya qarşı sanksiyalar onunla geniş ticari-iqtisadi əlaqələrə malik bütün ölkələr, o cümlədən Azərbaycan üçün təsirsiz ötüşmür. Rəsmi statistikadan aydın olur ki, son illərdə ilk dəfə olara bu ilin yanvar-mayında Azərbaycanla Rusiya arasında qarşılıqlı ticarətdə azalma qeydə alınıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin 5 ayında Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 1 740 102.0 min dollar təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz azalma deməkdir - ötən ilin eyni dövründə qarşılıqlı ticarət 1 789 562.51 min dollara bərabər olmuşdu.

Bu ilin yanvar-mayında Rusiyaya ixracımız 437 979.54 min dollar təşkil etməklə ötənilki 470 147.19 min dollarla müqayisədə 6,8 faiz azalıb, idxalımız isə 1 302 122.46 min dollara bərabər olmaqla ötənilki 1 319 415.32 min dollarla müqayisədə 1,3 faiz azalıb. Ticarətin azalmasında aprel ayında ABŞ-ın bir neçə Azərbaycan şirkətini ikincili sanksiyalara məruz qoymasının rolu olduğunu rahatlıqla söyləmək mümkündür. Belə görünür ki, Azərbaycan şirkətləri Rusiya ilə ticarətin təhlükəli nəticələrini nəzərə almalı olurlar.

Qeyd edək ki, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Bakıda nəşr olunan rusdilli "Sabah" jurnalına müsahibəsində bildirib ki, Rusiya və Azərbaycan qarşılıqlı hesablaşmaların təxminən 60 faizini milli valyutalarda - rubl və manatla aparırlar. Buna baxmayaraq, Rusiya maliyyə sistemlərinin sanksiyalara məruz qoyulması hətta rublla da əməliyyatların həyata keçirilməsində problemlərə səbəb ola bilər. Digər tərəfdən, sanksiyalar dərinləşdikcə, Rusiya ilə hər hansı ticarət münasibətləri təhlükəli ola bilər...

Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT

# Türkiyədə hotel qiymətləri KƏSKİN artdı

## Vüsalə Əhmədova: "Yerli əhali belə erkən rezervasiya etmədən istirahət edə bilmir, çünki..."

**Hər il yayda azərbaycanlıların istirahət üçün ən çox üz tutduğu ölkələrdən birincisi qardaş ölkə Türkiyədir. Amma bu il Türkiyənin istirahət bölgələrində qiymətlərin yüksək olması insanların arzusunu ürəyində qoyub. Turistlərin bu il üçün Türkiyə turlarını təxirə salmalı olduğu bildirilir.**



Tur şirkətlərindən birinin rəsmisi Pərvanə Əliyeva Musavat.com-a təsdiqləyib ki, bu il ötən ilə nisbətən Türkiyədə hotel qiymətləri bir neçə dəfə artıb:

"Qiymətlər 30-40% artıb. İnsanlar zəng vurub maraqlanır, qiymətlərlə tanış olduqdan sonra imtina etməli olurlar. Bu ilin mart-aprel aylarında Misirə gedənlər daha çox oldu, qiymətlər yüksək deyildi. Avropa qiymətləri də yüksək deyil, sadəcə viza almaqda çətinliklər var".

Məlumat üçün bildirək ki, Antalyada bu ilin iyul ayı üçün (6 gecə 7 gün) bir neçə hotelin təklif etdiyi qiymətlərə də nəzər yetirdikdə qiymət artımının şahidi oluruq. Misal üçün, 4 ulduzlu hotellərin qiyməti 900 manatdan başlayır və 1000-1300 manat arasında dəyişir. 5 ulduzlu hotellərin qiyməti isə 1540 manatdan başlayır, 2200 manata qədər müxtəlif qiymətlər təklif edilir. Onu da qeyd edək ki, qiymətlər hotelin dənizə yaxın olub-olmamasından, nə qədər əvvəl təmir olunmasından asılı şəkildə və hansı qida sisteminin təklif olunmasına görə dəyişir. Əgər ailədə iki uşaq varsa, bir ailənin 6 günlük istirahəti 8-10 min arasında dəyişəcək.

Bəs Türkiyədə istirahət bir il ərzində niyə bu qədər artıb?

Bəzi xarici ekspertlər Türkiyədə Kahramanmaraşda baş verən zəlzələdən sonra hotel qiymətlərinin artdığını bildirir. Bəziləri isə bunu yüksək inflyasiyanın olması ilə əlaqələndirir.

Qeyd edək ki, Türkiyədə 2022-ci ildə inflyasiya rekord qıraraq illik 70%-ə çatıb. 2023-cü ildə isə qiymət artımı bir il əvvəlkindən 1,5 dəfə yüksək olsa da, yavaşlayıb.

Türkiyədə yaşayan iqtisadçı-alim Vüsalə Əhmədova Musavat.com-a açıqlamasında qardaş ölkədə istirahətin ildən-ilə bahalaşması səbəblərinə aydınlıq gətirib:

"Pandemiyadan sonra, dəqiq desək, 2022-ci ildən etibarən Türkiyəyə turist axını əvvəlki illərdəki kimi həddindən artıq çoxalıb. Avropa ölkələri, ABŞ, Kanada, Meksika, ərəb ölkələri, Uzaq Şərq ölkələri və Rusiya başda olmaqla demək olar ki, dünyanın hər nöqtəsindən Türkiyəyə turist axını var. Yerli əhali üçün belə erkən rezervasiya etmədən istirahət etmək imkansız hal alıb. Bunun bir çox səbəbini açıqlamaq olar. Əvvəla, ölkənin köklü tarixi zənginliklərə malik olması, mədəniyyətlərin qovşağı olması, iqlimi, coğrafi gözəllikləri, yemək mədəniyyəti və s. Ən önəmlisi, yerli valyutanın dollar qarşısında ucuzlaşması Türkiyəni iqtisadi baxımdan xarici turistlər üçün əlverişli edir. Bu, həmçinin xarici vətəndaşlar üçün əlavə olaraq alış-veriş imkanı yaradır. Digər tərəfdən də Türkiyədə səhiyyə turizminin artan canlanması turist sayında əhəmiyyətli artıma səbəb olub. O cümlədən, ABŞ, Kanada və Meksika vətəndaşları üçün sadələşdirilmiş viza rejimi tətbiq edilməyə başlandı. "Euromonitor International" beynəlxalq araşdırma şirkəti tərəfindən keçən ilin dekabr ayında hazırlanan "dünyanın ən çox ziyarət edilən şəhərləri" hesabatında Türkiyədən iki şəhər ilk beşliyə daxil olub. Xarici turistlərin ən çox ziyarət etdiyi şəhərlər arasında İstanbul 20 milyon turist sayı ilə birinci, Antalya isə 16,5 milyon turist ilə dördüncü yerdədir. Bu, hələ 2023-cü ilin statistikasıdır, bu il daha çox artım olacağı gözlənilir. Göründüyü kimi, tələb təklifi üstələyir. Belə olan halda qiymətlərin yüksəlməsi qaçılmazdır".

Məlumat üçün bildirək ki, bu ilin yanvar-may aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı ötən ilin eyni dövrü ilə müqayisədə 27,5 % artaraq 808,1 min nəfər olub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, İrana gedən Azərbaycan vətəndaşlarının sayı 39,4 %, Türkiyəyə gedənlərin sayı 27,1 %, Gürcüstana gedənlərin sayı 21,3 %, Rusiyaya gedənlərin sayı 14,9 % artıb. Azərbaycan vətəndaşlarının 38,9 %-i Türkiyəyə, 21,9 %-i Rusiyaya, 8,9 %-i Gürcüstana, 8,6 %-i İrana, 21,7 %-i digər ölkələrə səfər edib. Gedənlərin 67,3 %-ni kişilər, 32,7 %-ni qadınlar təşkil edib.

❑ Afaq MİRAYİQ,
Musavat.com

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

**Ermənistanla Belarus arasında görünməmiş diplomatik skandal baş verməkdədir. Paşinyanın administrasiyasının rəhbəri Araik Arutyunyan Belarusa rəsmi səfərləri ləğv etməyi tapşırıb. Bu barədə “Joxovurd” qəzeti dövlət qurumlarının rəhbərlərinə və nazirlərə ünvanlanmış sərəncama istinadən məlumat yayıb.**

# Paşinyan Bakıya görə Lukaşenkoya savaş açdı - niyə indi?

### Erməni baş nazir Belarusa rəsmi səfərləri ləğv etdi, Minskdəki səfir geri çağırıldı, ekspertlərin fikrincə, İrəvan KTMT-dən çıxmaq üçün Azərbaycana “hərbi yardımı” bəhanə edir

“Yeni Müsavat” bildirir ki, Baş nazir Paşinyan Belarusa bütün rəsmi səfərləri ləğv etdiyini bəyan edib. Bunun ardınca İrəvan Minskdəki səfirini məsləhətləşmələr üçün geri çağırıb. Belarus XİN də İrəvandakı səfirlərini geri çağıracaqlarını açıqlayıb. Bir müddət əvvəl isə erməni baş nazir 44 günlük müharibədə iki KTMT ölkəsinin Azərbaycana yardım etdiyini açıqlamışdı.

Nikol ad çəkməsə də, Rusiya və Belarusa eyham vurduğu hiss olunurdu. Hərçənd, əsassız və məntiqsiz ittiham idi. Son günlərdə isə İrəvan KTMT-dən çıxmaqla bağlı mövqeyini dəqiqləşdirib. Paşinyan qeyd edib ki, Ermənistan təşkilatda fəaliyyətini dondurub, növbəti addım kimi blokdan çıxmaq qalır. Amma nə zaman çıxacaqlarını hökumətin açıqlayacağını elan edib. Belə vaxtda isə KTMT üzvü olan Belarusla əlaqələri kəsən Ermənistanın davranışı anlaşılan deyil. Erməni baş nazir deyib ki, prezident Aleksandr Lukaşenko nə qədər vəzifədədir, heç bir rəsmi şəxs Belarusa səfər etməyəcək.

Paşinyanın Lukaşenkoya qarşı başlatdığı kampaniyaya Qərb mediası da dəstək verməyə başlayıb. “Politiko” nəşri nədənsə məhz indi “xatırlayıb” ki, Belarus Azərbaycana hərbi yardım göstərib. Nəşr “ondan çox məktub, diplomatik not, yük qaiməsi və ixrac pasportuna” əsasən 2018-2022-ci illər arasında Belarusun Azərbaycan Ordusuna “fəal yardım etdiyinin təsdiqləndiyi” haqda iddia yayıb. Bildirilib ki, Bakıya təklif edilən xidmətlərə “köhnə artilleriya texnikasının modernləşdirilməsi, elektron müharibə və pilotsuz sistemlər üçün istifadə edilən yeni hərbi texnikanın verilməsi” daxilmiş - halbuki Azərbaycanın PUA-ları haradan aldığı bütün dünyaya bəllidir.

Nəşr “iki dövlət arasında ”Qroza-S" mobil antidron stansiyalarının alınması ilə bağlı yazışmalar"dan da bəhs edib. Heç bir real sənəd və sübut təqdim etməməsinə baxmayaraq, “Politiko” arqumenti gücləndirmək üçün Lukaşenkonun Azərbaycana səfəri, işğaldan azad edilən ərazilərin bərpasında iştirak istəyi ilə bağlı sözlərindən sitat gətirib. Maraqlıdır, necə oldu ki, Belarusun Azərbaycana hərbi yardım etdiyini Ermənistan indi gördü və Qərb mediası dərhal faktların dərcinə başladı? Belarusun Azərbaycana satdığı ən mühüm silah “Polonez” olub ki, bu barədə də Lukaşenko yüksək tribunadan uca səslə bir neçə dəfə danışıb. Həmin vaxt “Polonez”i Ermənistana da satmaq istədiyini, ancaq keçmiş prezident Serj Sərkisyanın bundan imtina etdiyini də xatırlatmışdı. Sərkisyan imtinasının səbəbini Rusiyadan “İsgəndər” alması ilə əsaslandırmışdı.

Siyasi şərhçi Asif Nərimanlının sözlərinə görə, erməni baş nazir bu addımını “Minskin Bakıya dəstəyi, Belarusun Azərbaycanın qələbəsindən ruhlanması” ilə əlaqələndirir: “Hərçənd bu, rəsmi İrəvanın KTMT ilə körpüləri yandırmaq üçün ”plankanı qaldırmaq" gedişidir. Paşinyan bildirir ki, “bundan sonra Belarusa getməyəcək, Lukaşenko prezident olduğu müddətdə Ermənistanın heç bir rəsmi nümayəndəsi bu ölkəyə getməyəcək və Lukaşenko ilə KTMT formatında nəyisə müzakirə etməyəcək”. Və əlavə edir ki, “Lukaşenko Ermənistandan üzr istəsə və ya Belarus təşkilatı tərk edərsə, İrəvan KTMT-yə münasibətini dəyişə bilər”. Rusiyanın 1 nömrəli müttəfiqi Belarus KTMT-ni tərk etməyəcək, Lukaşenko da Ermənistandan üzr istəməyəcək. Belarus Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, Lukaşenko da bu rəsmi mövqeyin məntiqi davamı kimi müharibədə qələbəyə görə Bakını təbrik edib. Buna baxmayaraq, Paşinyanın Lukaşenkoya “hücum etməsində” bir neçə hədəfi var".

Hədəfləri açıqlayan təhlilçinin fikrincə, İrəvana KTMT-yə qarşı yeni bəhanə lazımdır: “Görünür, son iki ildə istifadə etdikləri səbəb - ”Azərbaycan qarşısında Ermənistanın müdafiə edilməməsi"ni qüvvətləndirmək niyyətindədirlər. Putinə qarşı müttəfiqi Lukaşenko üzərindən “yeni cəbhə” açır və Rusiyanı Belarus-Ermənistan seçimi qarşısında qoyur, bununla KTMT-dən çıxmağı asanlaşdırırlar. Paşinyanın Lukaşenkoya bu qədər açıq hücumunun arxasında açıqlanmayan, yaxud ictimaiyyətləşməmiş səbəblərin olması da mümkündür. Lukaşenkonun Bakı səfəri bu kontekstdə xüsusilə diqqət çəkir. Belarus prezidenti Bakıda Əliyevi regionun lideri adlandırdı, daha sonra Moskvada Putinə bildirdi ki, “Əliyevlə müzakirə edib, region və Qafqaz üçün maraqlı təklifləri var”. Bölgənin gələcəyini Əliyevlə müzakirə edən Lukaşenkonun təkliflərinin nə olduğu bilinməsə də, bunun Azərbaycanın maraqlarına uyğun olduğu sirr deyil. Mümkündür ki, Ermənistan bu təkliflərdən məlumatlıdır və bunu öz maraqlarına təhlükə hesab edir. Lukaşenkoya açıq hücumun arxasında bu amil də dayana bilər".



Ekspertin dəyərləndirməsinə görə, Ermənistanın Belarusla əlaqələrinin kəsilməsinin riskli tərəfləri mövcuddur: “Birincisi, Ermənistan KTMT-dən çıxsa belə, iqtisadi amillərə görə Avrasiya İqtisadi İttifaqına ehtiyacı var və Lukaşenko ilə bu ittifaq çətiri altında üz-üzə gələcək. İkincisi, Lukaşenko Putinin müttəfiqi kimi Aİİ-də daha güclü mövqeyə sahibdir və istisna deyil ki, təşkilatdakı mövqelərindən Ermənistana qarşı istifadə edəcək. Belarus prezidentinin ”Ermənistan iqtisadi baxımdan ölmək istəyirsə, onu itirə bilərik" açıqlaması bu baxımdan çox şeyi ifadə edir".

Siyasi ekspert Ramiyə Məmmədova rəsmi İrəvanın qərarını bəsit siyasi gediş adlandırır. Onun fikrincə, məhz indi bu addımın atılmasının KTMT ilə əlaqədar olduğu gün kimi hər kəsə aydındır. Təhlilçinin zənnincə, əlaqələrin yenidən bərpası mümkündür, amma Paşinyan da mövqeyindən geri çəkilməlidir: “Baş nazir deyib ki, Lukaşenko hakimiyyətdə olduğu müddətdə rəsmi səfərlər olmayacaq. Amma Rusiyanın bu məsələdə vasitəçiliyi realdır. Sadəcə, Ermənistan KTMT-dən qopur deyə iki ittifaq dövlətini ittiham etməyə başlayıb. Paşinyanın xarici siyasət vektoru artıq açıq şəkildə nümayiş olunur. Qərbin də bu prosesə dəstəyi istisna deyil. Sadəcə, Ermənistan hakimiyyəti yalan danışır və Belarusun Azərbaycana hərbi yardımı olmayıb, iki ölkə arasında silah alqı-satqısının olması isə normaldır, bütün ölkələr müqavilələr imzalayıb eyni mübadiləni aparırlar. Sadəcə, erməni həyasızlığı sərhəd tanımır. Paşinyan utanmadan danışır ki, guya bizə yardım olub, bəs Rusiyanın Ermənistana pulsuz hədiyyə etdiyi silahlardan niyə söz açmır?”

**Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## Avropanın qaz anbarları 72,5 faiz dolub



**İyunun 12-də Avropa İttifaqı ölkələrində yeraltı qaz anbarlarına 222 milyon kubmetr qaz vurulub. Musavat.com “Gas Infrastructure Europe”nin məlumatına istinadən xəbər verir ki, gün ərzində anbarlardan 25 milyon kubmetr qaz götürülüb.**

Nəticədə Aİ anbarlarında 72,5 faizlik dolum səviyyəsi təmin edilib. Hazırda anbarlarda 79,5 milyard kubmetr qaz var ki, bu da son 5 il ərzində bu tarix üçün orta göstəricidən 10,87 faiz bəndi yüksəkdir.

İyun ayında Aİ-nin elektrik enerjisi istehsalında külək enerjisinin payı cəmi 13 faiz təşkil edir.

İyun ayında terminallardan Avropa qaz nəqli sisteminə mayeləşdirilmiş təbii qazın ümumi daxilolmaları əvvəlki ayla müqayisədə azalıb. Hazırda maye qazın yenidən qazlaşdırılması və onun Avropa boru kəmərlərinə daha da vurulması gücü maksimumun 40 faizi ilə yüklənir. Avropada iyunda qazın orta alış qiyməti 1 min kubmetr üçün 386 dollar təşkil edir.

**Musavat.com**

## Çindən Türkiyəyə etiraz: “Əlavə vergi tətbiq etməyin”



**Çin Türkiyənin bu ölkədən idxal etdiyi bütün yanacaq növlərinə aid minik avtomobillərinə əlavə vergi tətbiq etməsinə reaksiya verib. Musavat.com xarici mediaya istinadla xəbər verir ki, Çinin Ticarət Nazirliyi Türkiyənin əlavə vergi qərarına qəti şəkildə qarşı çıxdıqlarını və ayrı-seçkilik səciyyəsi daşıyan tariflərin aradan qaldırılmasına çağırdıqlarını bildirib.**

Bəyanatda Çin şirkətlərinin hüquqlarının müdafiəsi üçün bütün lazımi addımların atılacağı bildirilib.

Xatırladaq ki, Türkiyə bu həftə Çindən gətirilən minik avtomobillərinə əlavə vergi tətbiq etmək qərarına gəlib.

“Rəsmi Qəzet”də dərc olunan nizamnaməyə görə, hazırda elektrikli avtomobillərə tətbiq edilən 40 faizlik vergi bütün yanacaq növlərindən olan nəqliyyat vasitələrinə də tətbiq ediləcək. Bu vergi mövcud 10 faizlik gömrük rüsumuna əlavə olaraq tətbiq olunacaq.

Bundan əlavə, tənzimləmə ilə Çin mənşəli nəqliyyat vasitələri üçün ən aşağı gömrük rüsumu 7 min dollar olaraq təyin olunub.

Türkiyə bu üsulla öz yerli avtomobil istesalçılırını rəqabətədavamlı duruma gətirmək fikrindədir. Bu isə avtomatik olaraq Çin avtomobillərinin bazarını daraldır.

**Musavat.com**

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

# "COP29-un informasiya təhlükəsizliyinə cavabdeh bu şirkətdir" - ekspert açıqladı

**"COP29-un və digər əlaqəli qurumların rəsmi internet resurslarının təhlükəsizliyinin təmin edilməsinə, məlumat bazalarının qorunmasına, telekommunikasiya və internet problemlərinin həllinə kim cavabdehdir? Bildiyim qədər COP29 Əməliyyat Şirkəti tərəfindən informasiya təhlükəsiziliyinin təmin edilməsi Cyberpoint şirkətinə tapşırılıb".**

Musavat.com bildirir ki, bu sözləri Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

Mütəxəssisin fikrincə, əsas təhlükəsizlik həllərini Cisco təqdim edəcək:

"Əvvəllər A2Z tərkibində olan, sonralar ondan ayrılaraq əsasən kibertəhlükəsizlik sahəsində ixtisaslaşan Cyberpoint Azərbaycanda kibertəhlükəsizlik xidmətlərinin təminatçısı sahəsində ən öndə gedənidir.

Cyberpoint kritik inftrastruktura, bir çox iri dövlət qurumlarına və özəl şirkətlərə xidmət göstərir, kiber mütəxəssislərin yetişdirilməsi sahəsində universitetlərlə əməkdaşlıq edir. Geniş kibertəhlükəsizlik infrastrukturuna malikdir.

Düşünmək olar ki, COP29 dünyanın diqqət mərkəzində olduğundan tədbirlərin keçirildiyi ərəfədə və tədbirlər zamanı Azərbaycana qarşı kiber hücumlar, DDOS hücumlar artacaq.

Hazırda Azərbaycanın beynəlxalq trafiki 3 magistral operatorun (Delta Telecom, Azertelecom və Aztelekom) üzərindədir.



Ümid edirəm bu magistral provayderlərin işində, tədbilər keçirilən binalarda və ərazilərdə internet problemi olmayacaq".

Osman Gündüz qeyd edib ki, Bakı şəhərində parklarda və bulvar ərazisində, ictimai yerlərdə, ictimai nəqliyyatda keyfiyyətli internetin əlçatan olması vacibdir:

"Güman ki ölkədəki bütün otellər xarici qonaqlarla dolu olacaq. COP29 ilə əlaqəli bütün obyektlərin internet təminatının alternativlər üzərindən olmasına, rəqəmsal infrastrukturuna diqqət yetirmək də doğru olardı.

Bu günlərdə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti də COP29 zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün mühüm addımlar atıldığını bildirib.

Düşünürəm ki, COP29-un internet təminatı, təhlükəsizlik və şəbəkə işləri, məlumat bazalarının qorunması, bütövlükdə rəqəmsal işlərlə bağlı əlaqələndirici qurumun formalaşdırılması, bu məsələlərdə hesabatlılıq və şəffaflığın gücləndirilməsi faydalı olardı.

Beləliklə , hələlik görünən odur ki, COP29 -un təhlükəsizlik və internet məsələlərində Cyberpoint və Cisco şirkəti, XRİTDX və RİNN dövlət qurumları əsas iştirakçılardır. Ümid edirəm COP29-un rəqəmsal təminatında problem olmayacaq".

❑ **Xalidə GƏRAY, Musavat.com**

## Kiyev Rusiyanın yeni sülh təklifinə cavab verdi



**Kiyev Rusiyanın yeni sülh təklifini rədd edib.**

Musavat.com xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Ukrayna Prezident Ofisinin müşaviri Mixail Podolyak bəyan edib ki, Rusiya prezidenti Vladimir Putinin münaqişənin həlli ilə bağlı yeni təşəbbüsündə real sülh təklifi yoxdur.

"Bunda yeni heç nə yoxdur, real sülh təklifi yoxdur", - o, "X" səhifəsində yazıb.

O, həmçinin sülh təklifinin digər komponentlərini də rədd edib.

Bundan əvvəl Rusiya prezidenti Vladimir Putin bildirib ki, Rusiya Ukraynadakı münaqişənin həlli üçün yeni sülh təklifi ilə çıxış edir.

❑ **Musavat.com**

## Həcc ziyarətində bədbəxt hadisə - azərbaycanlı zəvvarlar yaralandı



**Həcc ziyarətində olan iki azərbaycanlı xəsarət alıb.**

Yenisabah.az-ın məlumatına görə, iyunun 14-də səhər Məkkədə hoteldə qalan iki zəvvar qadın liftin şaxtaya düşməsi nəticəsində yaralanıb.

Zəvvarların səhhəti barədə açıqlama verən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri və Həcc Elektron Sistem məsulu Vüsal Cahangiri qeyd edib ki, xəsarət alanların sağlamlıq durumunda ciddi problem yoxdur.

"Zəvvarlar yüngül xəsarət alıblar, onlara ilkin tibbi yardım göstərilib və sağlamlıqları təhlükədə deyil", - o, "oxu.az"a açıqlamasında bildirib.

Qeyd edək ki, Azərbaycandan həcc ziyarətinə səfər iyunun 4-dən başlayıb. Ümumilikdə 1 500 azərbaycanlı zəvvar təyyarələrlə iyunun 10-dək Məkkəyə çatdırılıb. Həcc ziyarətinin başa çatmasından sonra zəvvarlar təyyarə reysləri ilə iyulun 2-dək Vətənə qayıdacaqlar.

# "Rusiya NATO üzvlərinə qarşı düşmənçilik hərəkətlərini artırıb"

## NATO Baş katibi Putinin Ukrayna üzrə sülh danışıqları üçün irəli sürdüyü şərtləri pisləyib

**Rusiya son vaxtlar kiberhücumlar və miqrantlardan istifadə ilə NATO üzvlərinə qarşı düşmənçilik hərəkətlərini artırıb.**

APA xəbər verir ki, bunu NATO Baş katibi Yens Stoltenberq alyansın müdafiə nazirlərinin iclasından sonra mətbuat konfransında deyib.

"Bu gün nazirlər Rusiyanın bu hərəkətlərinə qarşı müttəfiqlərin fərdi və ya kollektiv şəkildə cavab verməsi barədə razılığa gəldilər. Bura kəşfiyyat məlumatlarının mübadiləsinin artırılması, kritik infrastrukturun, o cümlədən dəniz və kibermәkanın müdafiəsinin gücləndirilməsi və Rusiya kəşfiyyatının əməkdaşlarına əlavə məhdudiyyətlər daxildir", - Baş katib bildirib.

O vurğulayıb ki, alyans istənilən düşmənçilik hərəkətlərinə qarşı özünü müdafiə edəcək.

NATO Baş katibi Yens Stoltenberq Rusiya Prezidenti Vladimir Putinin Ukrayna tərəfinə sülh danışıqları üçün irəli sürdüyü şərtləri pisləyib və onları "daha çox təcavüz, daha çox işğal" təklifi adlandırıb.




APA xəbər verir ki, Baş katib bu barədə mətbuat konfransında deyib.

"Bu, xoş niyyətlə irəli sürülən təklif deyil. Bu, əslində, Rusiyanın indiyə qədər Ukraynadan işğal etmiş olduğu torpaqlardan daha çox imtina etməsini gözləyərək müharibə məqsədlərinə çatmağı hədəfləyən bir təklifdir", - Stoltenberq vurğulayıb.

Qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putin Ukrayna ilə danışıqların şərtlərini açıqlayıb. Putin Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə görüşdə bildirib ki, Kiyevlə danışıqların şərtləri bunlardır: Ukrayna qoşunları Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərinin inzibati sərhədləri daxilindən tamamilə çıxarılmalıdır.

Onun sözlərinə görə, Ukrayna qoşunlarının real çıxarılması başlayan kimi və Kiyev NATO üzvlüyündən imtina etmək planlarını bildirən kimi, Moskva atəşkəs və danışıqların başlanması barədə göstəriş verəcək.

"Rusiya ordusu Xerson və Zaporojye vilayətlərinin bir hissəsini ələ keçirdikdən sonra bir sıra ölkələr vasitəçiliyə hazır olduqlarını bəyan ediblər", - Putin deyib.

# Həm keyfiyyətli, həm də ucuz - uşaqları yay istirahəti üçün hara aparmalı...

**Daha bir tədris ili arxada qaldı. Valideynlərin qayğıları ilk baxışda 3 aylığına da olsa, azaldı. Ancaq indi başqa qayğı başlayır. Yay mövsümündə uşaqları dincəlmək və dərs ilinin stresini daha yaxşı “atmaq” üçün hara aparmalı? Azərbaycanda qiymət və keyfiyyət (servis) baxımından uşaqların istirahəti üçün ən sərfəli məkanlar haradır, varmı?**

## Ekspertlər istirahətin vacib, valideynlərsə qiymətlərin baha olduğunu deyirlər

Qeyd edək ki, valideynlərin daha çox narazı qaldığı uşaqlar üçün təşkil olunan yay düşərgələrinin olduqca baha olması ilə bağlıdır. Qeyd edək ki, yay düşərgələrinin bir həftə üçün qiymətləri təqribən (gecələmədən) 700-1000 manat arası dəyişir.

Pedaqoq Balabəy Quliyev uşaqların yay tətilində istirahətini təşkil etməyin vacib olduğunu vurğulayır: “Artıq qızmar günəşli yay fəsli bizimlədir. Şagirdlər yay tətilinə buraxılıblar. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bir çox valideynlər yay tətilində də öz övladlarına istirahət etmək imkanı yaratmırlar. Yayda ən azından avqustun sonuna kimi uşaqların bütün məşğələlərini saxlamaq lazımdır. Valideynlərin bir çoxuna elə gəlir ki, tətil günlərində uşaqları dərsliklərlə məşğul olmasalar, daha da geridə qalacaqlar, bilikləri zəifləyəcək. Bu çox səhv fikirdir. Yay tətilində uşaqlar yalnız istirahət etməlidirlər. Təmiz havada çox olmalı, bol-bol günəş vannası qəbul etməli, dəniz havasında çox olmalı, bacardıqca çox yerli yay meyvələrdən yeməlidirlər. Valideynlər həmişə həyacanlıdırlar, uşağım niyə filan fəndən 4 aldı? Guya yayda məşğələlərə getməklə onlarda irəliləyiş olacaq. Əvvəla maddi baxımdan özlərinə, sonra isə mənəvi və fiziki baxımdan özləri də bilmədən övladlarına ziyan vuran valideynlər övladlarından onların qəbul edəcəyindən çox şey tələb edirlər. Uşaqlarınıza rəhm edin, onlara istirahət etmələri üçün şərait yaradın. Onları öz doğma rayon və kəndlərinə babalarının, nənələrinin yanına qonaq aparın, birlikdə dəniz qırağına, meşələrə gəzintilərə çıxın. Mənə elə gəlir ki, bütün bunları etmək üçün elə də çox maddiyata ehtiyac olmur. Qoy uşaqlar yeni dərs ilini gümrah, sağlam zehinlə qarşılasınlar. Heç olmasa məktəbdə müəllimlərinin "Sən yay tətilini necə keçirdin?" sualına cavab verərkən real keçirdikləri yay tətilindən danışa bilsinlər".

Turizm üzrə ekspert Ceyhun Aşurov mövzu ilə bağlı “Yeni Müsavat”a bunları bildirib: “Tədris ilinin sonudur, universitetlərdə də imtahanlar yekunlaşır. İnsanların bundan sonra tətil dövrü başlayır. Ailələrin kifayət qədər boş vaxtları var. Regionlarda istirahət yenə də prioritetdir. Düzdür, xaricə səfər edən ailələr də var. Amma nəzərə almaq lazımdır ki, xarici səfərlər üçün bu ilki qiymətlər kifayət qədər yüksəkdir. Yüksək qiymətlər daxili bazara tələbin artmasına səbəb olur. Əgər əvvəllər insanlar dost, qohumları ziyarət edirdilərsə, bəzən valideynlər öz qohumları yaşayan rayonlara, ata-baba ocaqlarına üz tuturdular. Uşaqlar yay tətilini müxtəlif regionlarda keçirirdilər. Müxtəlif kamplar var idi ki, orada yay tətilini keçirirdilər. İndi istirahət etmək insanlar üçün bir zərurət halını alıb, çünki buna sosial şəbəkələr, müasir dövrdə həyat tərzimiz də təsir edir. Bakıda kimin bağ evi varsa, bağına gedir, bəziləri çimərliklərə gedir, dənizkənarı yerlərdə dincəlməyə çalışırlar. Məqsəd o deyil ki, gedib bir neçə gün haradasa qalasan. Bir günlük də olsa turlara qoşulanlar da var. Turizm şirkətləri də daxili turlar hazırlayırlar. Azərbaycanın Qarabağ regionu daxil, müxtəlif regionlarına birgünlük turlar təşkil edirlər ki, bunların qiyməti elə də yüksək deyil. Birgünlük, ikigünlük, üçgünlük turlar olur. Amma regionlarda da ailəvi istirahət etmək istəyənlər üçün bütün zonalara səfərlər təşkil edilir. Uşaqların dincəlməyi üçün müxtəlif kamplara rast gəlirik, 7-16 yaş aralığında uşaqlar üçün nəzarət altında olan müəyyən kamplar var, bunları təşkil edən xüsusi şirkətlər var. Yatılı, yatılı olmayan düşərgələr var ki, bunların da (bir həftəlik) qiyməti 450 manatdan 1000 manat arasında dəyişir".



Ekspert əlavə edib ki, bu il rayonlarda turizm gözlənildiyindən baha başa gəlir: “Əslində çox baha deyil. Sadəcə büdcəmizə uyğun yerlərin seçim imkanları məduddur. Amma hər il bazara yeni qalma yerləri əlavə olunur. Əgər əvvəl qohum-dost evlərində qalırdıqsa, artıq regionlarda qalmaq üçün kənd evləri çoxalmağa başlayıb”.

Təhsil eksperti Nadir İsrafilov da sosial media hesabından bu məsələ ilə narahatlığını ifadə edib. O qeyd edib ki, mövcud olan düşərgələrin qiymətləri əhalinin geniş təbəqəsi üçün kifayət qədər əlçatan deyil: “Uşaqlar bizim gələcəyimizdir, gələcəyi isə qorumaq borcumuzdur. Uşaq uşaqlıq həyatın yaşamalıdır və uşaq kimi böyüməlidir. Demək olar ki, şagirdlər yay görmür, asudə vaxt tapan kimi kompüter salonlarına gedib müxtəlif oyunlar oynamaqla özlərinə təsəlli tapırlar. Təbii ki, bu da onların sağlamlığına və tərbiyəsinə təsirsiz ötüşmür. Məktəblilərin yay düşərgəsi məsələsi geniş şəkildə ictimailəşməli, problemin üstünə gedilməlidir. Ölkədə hələ 1998-ci ildə qəbul olunmuş ”Uşaqların hüquqları haqqında" qanunun 25-ci maddəsində qeyd olunur ki, hər bir uşağın istirahət və asudə vaxtından istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdən kənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər və müvafiq dövlət orqanları uşaqların istirahət və asudə vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısının alan tədbirlər görməlidir. Dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni həyata və yaradıcılıq fəaliyyətinə qovuşmasını təmin etmək məqsədilə məktəbdənkənar müəssisələrin, sağlamlıq ocaqlarının və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır, inkişaf etdirir, bu obyektlərdən pulsuz və güzəştli istifadə qaydalarını müəyyən edir".

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**



## İrandan Azərbaycana 28 kq narkotik keçirilməsinin qarşısı alındı

**Narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb. Bu barədə APA-ya Dövlət Sərhəd Xidmətindən məlumat verilib.**

Məlumata görə, iyun ayının 13-də saat 04:22-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 28 kiloqram 288 qram narkotik vasitə marixuananın qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Azərbaycanda günəş enerjisi istehsalı 8 dəfə artıb

**2024-cü ilin yanvar-may ayları üzrə operativ məlumatlara əsasən, ötən 5 ay ərzində respublikada elektrik enerjisinin istehsalı 11 231,4 mln. kVtsaat olub.**

Bu barədə “APA-Economics”ə Energetika Nazirliyindən bildirilib.

Məlumata görə, dövrdə elektrik enerjisi istehsalı İES-lərdə 9 685,6 mln. kVtsaat, SES-lərdə keçən ilin müvafiq dövrünə nisbətən 525 mln. kVtsaat artımla 1 197,3 mln. kVtsaat, digər mənbələr üzrə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 189,4 mln. kVtsaat artımla 348,5 mln. kVtsaat təşkil edib. 5 ay ərzində külək elektrik stansiyalarında 26,3 mln. kVtsaat, günəş elektrik stansiyalarında ötən ilin müvafiq dövrünə nisbətən 181 mln. kVtsaat və ya 8 dəfə artımla 206,5 mln. kVtsaat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 115,7 mln. kVtsaat elektrik enerjisi istehsal edilib.

Hesabat dövründə elektrik enerjisinin istehsalı “Azərenerji” ASC üzrə 9 900,6 mln. kVtsaat (İES-lərdə 8 789,5 mln. kVtsaat, SES-lərdə 1 111,1 mln. kVtsaat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 177,3 mln. kVtsaat (İES-lərdə 73,9 mln. kVtsaat, SES-lərdə 79,2 mln. kVtsaat, Günəş ES-də 24,2 mln. kVtsaat), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 19,2 mln. kVtsaat, müstəqil elektrik stansiyaları üzrə isə 1 134,3 mln. kVtsaat təşkil edib.

Yanvar-may ayları üzrə elektrik enerjisinin ixracı 426,8 mln. kVtsaat, idxalı isə 80,9 mln. kVtsaat olub.

Qeyd edək ki, 2024-cü ilin may ayında respublika üzrə elektrik enerjisinin istehsalı 1 999,5 mln. kVtsaat olub. Bu ayda elektrik enerjisinin ixracı 20,4 mln. kVtsaat, idxalı isə 19 mln. kVtsaat təşkil edib.




# Yayın futbol həyəcanı - AÇ-24 başladı

## Gözlər Türkiyə millisində; favoritlər, şanslar...

**İyunun 14-də Almaniyada Almaniya-Şotlandiya matçı ilə futbol üzrə növbəti Avropa çempionatının final mərhələsi start götürüb. Bir ay çəkəcək (14 iyun-14 iyul) yarışma 6 qrup üzrə 24 ölkə millisi arasında keçiriləcək. Turnirdə mübarizə aparacaq qruplar və komandalar aşağıdakılardır:**

A qrupu: Almaniya, Şotlandiya, Macarıstan, İsveçrə.

B qrupu: İspaniya, Xorvatiya, İtaliya, Albaniya.

C qrupu: Sloveniya, Danimarka, Serbiya, İngiltərə.

D qrupu: Hollandiya, Fransa, Polşa, Avstriya.

E qrupu: Ukrayna, Slovakiya, Belçika, Rumıniya.

F qrupu: Portuqaliya, Çexiya, Gürcüstan, Türkiyə.

Qeyd edək ki, qrupları ilk iki yerdə başa vuran komandalar və üçüncü yeri tutan ən yaxşı 4 komanda son 1\16 mərhələsinə yüksələcək. Qrup yarışları çərşənbə günü, iyunun 26-da başa çatacaq.

İyunun 29-da start götürəcək 1/8 final mərhələsindən etibarən turnir birdəfəlik ələmə üsuluna keçəcək. Turnirdə 1/4 finalın oyunları iyulun 5-i və 6-da, yarımfinalın oyunları isə iyulun 9-u və 10-da keçiriləcək.

Avro-2024-ün çempionu iyulun 14-ü, bazar günü Berlin olimpiya stadionunda keçiriləcək final oyununda müəyyənləşəcək.

Azərbaycanlı azarkeşlərin, heç şübhəsiz ki, əsas diqqətləri qardaş Türkiyədədir. Bir sözlə, qəlbimiz bizə ən yaxın olan dövlətlə döyünəcək. Türkiyə yığması çempionatın ilk oyununda iyunun 18-də Dortmundda Gürcüstanla qarşılaşacaq. Yığma qrupda ikinci oyununu iyunun 22-də Dortmundda Portuqaliyaya, üçüncü oyununu isə iyunun 26-da Hamburqda Çexiyaya qarşı keçirəcək.

Budəfəki çempionatın favoriti hansı ölkədir? Türkiyəmizin şansları varmı?

Hər zaman futbolu yaxından izləyən, deputat Aqil Abbasın azarkeşlik etdiyi ölkə Almaniya olacaq: “Hazırda Türkiyə millisi ilə Azərbaycan milli komandası eyni səviyyədədir. Türkiyənin yer aldığı qrupundan belə çıxma şanslarını görmürəm. Almaniyanı favorit sayıram. Gürcüstanın necə oynayacağı məni çox maraqlandırır. Çünki, orada 600 min azərbaycanlı yaşayır. Onlar da komandalarını dəstəkləyəcək. Mən də Gürcüstanı tutacam. Amma iyunun 18-də keçiriləcək Türkiyə-Gürcüstan oyununda təbii ki, qardaş ölkəyə ürəkdən azarkeşlik edəcəm. İndiyə qədər hər zaman Türkiyənin tərəfini saxlamışam. Türkiyə olmayanda əvvəllər İspaniya millisinə baxmışam. Favoritlər sırasında Fransanın adı da çəkilir. Amma bu ölkənin çempion olacağına qətiyyən inanmıram. Futbol mütəxəssisi olmadığım üçün yanıla da bilərəm. Sadəcə İlkay Gündoğan Almaniya millisində oynayır. Ona görə də, daha çox alman millisinin qalib gəlməsini istərdim. Açığı yarışın Almaniyada keçirilməsinin bu ölkə üçün əsas şans olduğuna inanmıram. Belə futbollarda meydan amili əsas rol oynamır. Hakim amili var, bəzən meydan sahiblərinin tərəfini tuturlar. Amma bu da nadir hallarda olur. Məsələn, bir fikir deyim. Türkiyənin oyunlarında azarkeş dəstəyi Almaniyanın oyunlarına olan dəstəkdən heç də az olmayacaq. Çünki, bu ölkədə milyonlarla türk yaşayır. Şabanın sözü olmasın, bir müddətdən sonra Almaniyada ana dili türk dili olacaq”.

İdman mütəxəssisi Kənan Məstəliyev favoritlərini açıqladı: “Növbəti futbol bayramını yaşayacağıq. Əla komandalar, əla stadionlar, əla ab-hava və gözəl bir turnir. Almanların təşkilatçılıq bacarığı məlumdur, onlar hər şeyi ən yaxşı səviyyədə edəcəklər. Oyunun özünə gəlincə, favoritlər Fransa, İngiltərə və Almaniyadır. Daha çox fransızları qeyd edə bilərəm, çünki heyətləri ulduzlar toplusudur, əsl qalaktikosdu. Hansısa fors-major hadisə baş verməsə Didye Deşamın yetirmələrinin çempion olmasına kimsə mane ola bilməyəcək. İngilislər də güclü və qələbəyə hazırdılar. Qaret Sautqeyt optimal bir heyət qurub, ən formada olan futbolçuları cəlb edib, qızıl medallara kökləyib. Almanlar da favoritdir, amma sırf meydan sahibi olduqları üçün. Onlarda hələ də nəsil dəyişikliyi gedir, prosesi bitirə bilməyiblər. Onların hətta finala çıxması belə sürpriz hesab ediləcək. Türkiyəyə gəlincə, qardaş ölkənin komandası gənc ulduzlarla doludur. Xüsusilə də, Arda Gülərin performansı hər kəsi maraqlandırır. Yoldaşlıq görüşlərində gördüyümüz Gülər çox yüksək səviyyədə oynamağa hazırdır, əla futbolçudur. Buna baxmayaraq, Türkiyəni turnirin favoritləri sırasına aid etmək olmaz. Potensial olaraq ən yaxşılardan olsalar da, "ay-ulduzlular"ın komanda oyunu baxımından çətinlikləri var. Türkiyə bu turnirdə final da oynaya bilər, öz qrupunda qala da. Sabitlik əsas problemdir. Gürcüləri udub, çexiyalılarla ən azı bərabərə qalmaqla qrupdan çıxmağı təmin edə bilərlər, məncə bunu edə biləcəklər. Ancaq sonrası çətin məsələdir. Çünki AÇ-də rəqabət həmişə yüksək səviyyədə olub, bu mənada DÇ-dən üstün olublar. Burda hər xal, hər tur üçün ciddi mübarizə gedir. Türkiyəmizi çətin bir yarış gözləyir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Qəbul imtahanında iştirak etmək üçün qeydiyyat müddəti uzadıldı

**Qarşıdan gələn bayram günləri ilə əlaqədar I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat müddəti 19 iyun saat 23:59-dək uzadılıb.**

Bu barədə APA-ya Dövlət İmtahan Mərkəzindən məlumat verilib.




İmtahanın 2-ci cəhdində iştirak etmək istəyənlər şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (https://www.e-gov.az/az/services/read/3148/0?tqdk_xdm=133 ttps://www.e-gov.az/az/services/read/3148/0?tqdk_xdm=133) daxil olaraq yenidən imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçirlər və müvafiq qaydada ödəniş (sistem tərəfindən avtomatik istifadəçiyə məlumat verilir) edirlər. 2-ci cəhd üzrə qeydiyyat zamanı I və ya III ixtisas qrupunu seçən abituriyentlər 1-ci cəhd üzrə olduğu qaydada öz istəklərinə uyğun olaraq müvafiq ixtisas qrupu üzrə altqruplardan birini, yaxud hər ikisini seçə bilərlər.

14 iyun saat 15:30-a olan məlumata əsasən, I ixtisas qrupu üzrə 14926, II ixtisas qrupu üzrə 13059, III ixtisas qrupu üzrə 15514, IV istisas qrupu üzrə isə 3984 abituriyent qeydiyyatdan keçib.

İmtahanda yalnız göstərilən tarixədək qeydiyyatdan keçən abituriyentlər iştirak edə bilərlər.




# Bilgəhdə dənizdə uşaq batdı

**Fövqəladə Hallar Nazirliyinin (FHN) “112” qaynar telefon xəttinə Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsində dənizdə bir nəfərin (uşaq) batması barədə ilkin məlumat daxil olub.**

Musavat.com FHN-ə istinadən xəbər verir ki, məlumatla əlaqədar, FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilər axtarışlara cəlb olunublar.

YENİ MÜSAVAT
N 105 (8478) 15 iyun 2024

# Atalar üçdən, AFFA yeddidən deyib... - Santuşla bağlı fərqli rəylər

## Fazil Mustafa: "Məşhur bir məşqçinin milliyə gətirilməsi sadəcə diqqətləri çəkəcək, başqa nəyəsə yaramayacaq"

## Natiq Muxtarlı: "Azərbaycan futbolu yağışdan çıxıb, yağmura düşüb"

**Azərbaycan futbol millisinin növbəti baş məşqçisi, nəhayət, bəlli oldu. Bu, 70 yaşlı tanınmış portuqaliyalı mütəxəssis Fernandu Santuşdur. O, futbol millimizin sayca 7-ci əcnəbi baş məşqçisi olacaq.**

İyunun 13-də Fernandu Santuş ictimaiyyətə təqdim olunub. AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev bildirib ki, Fernandu Santuşla bağlı elə də çox danışmağa ehtiyac yoxdur, çünki dünyaca tanınmış məşqçidir: "Onun müxtəlif yığmalarda bir sıra uğurları olub. Yunanıstan millisini 2014-cü ildə Dünya Çempionatına çıxarmışdı. Portuqaliya millisində isə Avropa çempionu olub".

Sərxan Hacıyev 70 yaşlı çalışdırıcının qarşısına bir sıra məqsədlər qoyulduğunu vurğulayıb: "Əsas məqsədlərdən biri 2028-ci ildə Avropa çempionatının seçmə mərhələsində uğurlu nəticə göstərmək olacaq. Millimizin müəyyən oyunlarına baxıb. Komandamıza da inandığını bildirib. Bunları da nəzərə alaraq, düşünürük ki, uğurlu iş birliyi olacaq və uzunmüddətli perspektivlərdə müsbət nəticə əldə olunacaq".

Yeni baş məşqçi də nikbin danışaraq, "Hədəf 2028-ci ildəki Avropa çempionatına vəsiqə qazanmaqdır" söyləyib.

Mümkünmü? Santuş sələflərindən nə ilə fərqlənəcək, onların göstəricilərini yaxşılaşdıra biləcəkmi?

Qeyd edək ki, bəzi tanınmış idman mütəxəssisləri AFFA-nın yeni baş məşqçi təyinatı ilə bağlı tənqidi fikirlər söyləyiblər. Tanınmış futbol azarkeşləri bu bədbinliyi bölüşürmü? Atalar üçdən, AFFA yeddidənmi deyib?



Futbolla yaxından maraqlanan Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bir sıra səbəblər aradan qaldırılandan sonra uğur qazanılacağını düşünür: "Biz burada hansısa formada Santuşun karyerasını müzakirə etmirik. Çünki o, Azərbaycanda kağız üzərində futbol oynatmayacaq ki? Ölkəmizdə çempionata əsaslanan futbol oynadacaq. Bizdə mənasız şəkildə bir çox hallarda legioner bolluğunu milliləşdirməklə hansısa bir uğur qazanacağımızı düşünənlər təsadüfi qələbələrlə nəyisə irəli apara bilərlər. Amma bütövlükdə milli komandanın alt yapısının doğru qurulması və uşaq futbolundan başlayaraq 17, 20 və 21 yaşlıları eyni sistem üzrə hazırlayan bir anlayışla hərəkət olunmalıdır. Biz ağacın yuxarısını həll etməyi düşünürük, hər kəsin gördüyü hissəni həll etməyə çalışırıq, amma gövdəni necə düzəldəcəyimiz barədə heç bir proqrama sahib deyilik. Ona görə də, Santuş olmasın, hansısa bir məşhur baş məşqçi olsun, milliyə gətirdik, o da ola bilsin ki, ağacın yuxarı qatlarını kəsib onu gözəl görüntü formasına gətirsin, amma alt qat gövdəsinə təsir edə bilməyəcək. Onun üçün də yerli məşqçi üzərində durmaq üçün əsaslarım var. Qeyri-leqal hədəflər qoymaqla nəsə həll olunmur. Biz Gürcüstanla müqayisə aparmaq istəyiriksə, əslində biz Gürcüstanla müqayisə olunmamalı idik. Çünki indiyə qədər uşaq futboluna laqeyd yanaşmağımız bu günkü futbolumuzun mövcud durum yaşamasının səbəblərindən biridir. Bizim meydança anlayışına laqeyd yanaşmağımız, meydançalarda binalar tikməyimiz, təbii meydançalar qıtlığını vaxtında həll etməməyimiz, futbola sadə bir statistika kimi baxmağımız da səbəblərdir. Bu gün biz yuxarıda meyvə yetişməsini gözləyirik. Biz ağaca qulluq etdikmi? Onun sağlam böyüməsi üçün nə etdik? Hesab edirəm ki, məşhur bir məşqçinin milliyə gətirilməsi sadəcə diqqətləri çəkəcək. Başqa nəyəsə yaramayacaq. Biz elə etməliyik ki, bütün millilərimiz bir-birinə futbolçu yetişdirmək düşüncəsində olsunlar. Bir çox hallarda alt qatdan futbolçu gəlmir. Klublardan da lazımı səviyyədə futbolçu almaq olmur. Alternativ futbolçu anlayışı hansısa mövqelərdə azdır. Aşağı divizyonlardakı oyunların ümumi vəziyyəti ürəkaçan deyil. Tək SOCAR anlayışı olmamalıdır. Xüsusilə, bölgələrdə sahibkarların dəstəyi ilə təşkil olunan klub anlayışına keçməliyik. Bu gün hansısa bir klubun rəhbərliyində dəyişiklik olanda klubun mahiyyətində dəyişiklik olur. Bir də görürsən ki, 2 və ya 3-cü yerləri tutan klub bir rəhbər dəyişikliyi ilə sonuncu sıralara yuvarlanır. Onun üçün də milli çempionat məsələsinə xüsusi önəm verilməlidir. Futbolumuzda uzun müddətli strategiya hazırlanmalıdır. Futbolun inkişafına aid II dövlət proqramı qəbul olunmalıdır. Birinci dövlət proqramı uğurla yekunlaşmadı. Ortada konkret futbol komandalarının bazası deyilən bir anlayış yoxdur. Bir neçə klubdan başqa digərlərinin normal infrastrukturları yoxdur. Hətta güclü infrastrukturu olan klub əsas liqada qala bilmədi. "Qəbələ"ni nəzərdə tuturam. Bu klub dəstək göstərilməməsi ucbatından bu taleyi yaşadı. Bu problemlər həll olunandan sonra hansısa bir xarici məşqçini gətirib qarşısına hədəflər qoymaq olar. Əks halda hansı hədəfləri qoysan, Gürcüstan və ya Albaniya millisindən irəli gedəcək nəticələr əldə olunmayacaq. Xaricdə olan futbolçularımız da demək olar ki, yox dərəcəsindədir. Olanlar da əsas çempionatda deyil, birinci dəstədə oynayırlar, oynadıqları klublar da o dəstədə ilk sıralarda deyillər. İstisna olaraq, 1-2 futbolçumuz Türkiyə superliqasında oynayırlar. Onlar da lider komandalar deyillər".

Deputat onu da qeyd etdi ki, indiki mərhələdə yerli məçqçi daha faydalı ola bilərdi: "Sonuncu oyunlara millini Arif Əsədov çıxardı. O daxil başqa yerli məşqçilər də var ki, onlardan birini baş məşqçi təyin etmək olardı. İndi dediyim kimi, bir daha deyirəm ki, alt yapını düzəltmədən nəticə olmayacaq. Təsadüfi bir neçə qələbə bizi aldatmamalıdır. Təbii ki, Santuşun gəlməsi millidə ciddiyyət yaradacaq. Amma məşqçi çıxıb meydançada oynamır. Onun əlində ciddi materiallar olmalıdır. Meydanda hücum xəttində azı 6-7 ciddi alternativlərin olmalıdır, bu fikirlərim digər xətlərə də aiddir. Ciddi çətinliklərimiz var. Uşaq futboluna olan biganə münasibət aradan qaldırılmalıdır. Əks halda uğur qazanmaq çox çətin olacaq. Yeni baş məşqçinin gətirilməsindən sonra hansısa bir uğurdan danışmaq olmaz. Santuş özünü təsdiq etmək üçün müəyyən addımlar atacaq. Onun şərtləri bilinməlidir. O da cəmiyyətə məlum olmalıdır ki, Santuş hansı təklifləri verib. Bəlkə onun təklifləri hamımızın ürəyindən olacaq. Ondan sonra biz də fikirlərimizi korrektə edə bilərik".

Tanınmış idman yazarı Natiq Muxtarlı isə qeyd etdi ki, AFFA rəhbərliyi yenə də ictimai rəyi, o cümlədən Azərbaycan futbolunun reallığını nəzərə almadı: "Reallıq odur ki, bu gün Azərbaycan futbolunun adlı-sanlı məşqçiyə yox, infrastruktura, futbolçuya ehtiyacı var. AFFA rəhbərliyi iş görmək əvəzinə yenə də şou yaratmağa üstünlük verdi. AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev deyir ki, Santuşun qarşısına Avro-2028-in final mərhələsinə vəsiqə qazanmaq vəzifəsi qoyulub. Sual yaranır: Nəynən, ay Əliş? AFFA-nın sabiq prezidenti Rövnəq Abdullayev də Avro-2016-ya vəsiqə qazanmağı tələb kimi qoymuşdu. Qazandımı? Yox. Ondan bu yana nə dəyişib? Heç nə. Azərbaycan futbolunda infrastruktur qurulubmu, ortabab Avropa klubunda oynamağa qadir bir futbolçu yetişibmi? Yox. Bəs onda Sərxan Hacıyev hansı tələbdən danışır? Bu tələbi yerinə yetirmək üçün potensial varmı? Yoxdur. Bunu ictimaiyyət də, AFFA rəhbərliyi də bilir. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin təmsilçisi stadionu olmadığı üçün sərgərdandır. Həssas bölgə Naxçıvan təmsilçisi stadion olmadığı üçün Bakıda məskunlaşıb. Böyük futbolda infrastruktur belə bərbad durumdadırsa, görün uşaq futbolunda vəziyyət necədir. AFFA rəhbərliyi ilk növbədə bu problemi araşdırmalı, strategiya qurmalı idi. Amma onlar şouya üstünlük verdilər. İldə 6-7 milyon portuqallara xərclənəcək. Minimum 3 ilə 20-30 milyon avro - təxminən 60 milyon manata yaxın vəsait xərclənəcək, əcnəbi məşqçilərə. Nəticə də olmayacaq. Bölgələrdə azərbaycanlı uşaqlar məşq üçün adi şəraiti olan stadion, forma, top tapa bilmirlər. Onların kəndlərdən rayon mərkəzinə gəlmək üçün ciddi nəqliyyat problemi var. Çoxlarının ailəsinin iqtisadi durumu ağır olduğu üçün uşaqlarını məşqə göndərməyə yolpulu tapa bilmirlər. Yüzlərlə, minlərlə azərbaycanlı istedad bölgələrdə məhv olur, itib-batır. AFFA-nın bu bəladan xəbəri varmı? Yoxdur. Olsaydı, Portuqaliyada məşqçi axtarmazdılar. Olsaydı, azərbaycanlı uşaqlara xərclənməli olan vəsaiti könül xoşluğu ilə 6-7 əcnəbiyə verməzdilər.

Azərbaycan futbolu yağışdan çıxıb, yağmura düşüb. Belə idarəçilərlə heç nəyə nail olmayacağıq. Bu, aksiomdur. Azərbaycanda futbolun gələcəyi yoxdur. Santuş heç nəyə nail ola bilməyəcək. Çünki onun sərəncamındakı futbolçular Ronaldo deyil. Onun sərəncamında olan futbolçular Türkiyənin ikinci dəstəsində heyətə düşə bilmirlər. Belə futbolçularla ciddi uğur qazanmaq olar? Biz "olmaz" deyirik. Əgər Santuş "olar" deyirsə, deməli, o, mütəxəssis yox, cadugərdir. Buyursun, cadusunun qüvvəsini göstərsin".

❑ **Cavanşir ABBASLI
"Yeni Müsavat"**



# Palçıq Vulkanları Turizm Kompleksinə biletlər satışa çıxarıldı

**Abşeron ərazisində yerləşən Palçıq Vulkanları Turizm Kompleksinə gəlmək üçün biletlər satışa çıxarılıb. "APA-Economics" xəbər verir ki, bunu Kompleksə mediatur zamanı jurnalistlərə açıqlamasında Dövlət Turizm Agentliyinin tabeliyində Qoruqları İdarəetmə Mərkəzinin idarə heyətinin sədri Murad Ağabəyli deyib.**

O bildirib ki, biletlərin qiyməti xarici turistlər üçün 15 manat, yerli turistlər üçün isə 5 manat olacaq:

"Kompleksə giriş müxtəlif kateqoriyalı insanları nəzərə alaraq, əlillər, qazi və şəhid övladları və məktəblilər üçün tam ödənişsiz nəzərdə tutulub. Biletləri iticket.az saytından və kompleksə gələrək əldə etmək mümkündür".

YENİ MÜSAVAT

Son səhifə

N 105 (8478) 15 iyun 2024

iyun

## Bunları bilirsinizmi?

* Bir qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Pişiklər ultrason səslərini eşidə bilirlər.
* Bu günə qədər bilinən ən ağır böyrək daşının çəkisi 1.36 kq- dır.
* Dünyanın ən böyük şəkər istehsalçısı Kubadır.
* Dünyanın ən tez böyüyən bitkisi bambu, bir gündə təxminən 90 sm.
* Bir insanın üzünü xatırlamaq üçün insan beyninin sağ tərəfi işlədilir.
* Rusiyanın dörddə biri meşəliklə örtülüdür.
* Sağ əlini işlədən insanlar sol əlini işlədən insanlara nisbətən 9 il daha çox yaşayır.
* Sehirli söz olan Abrakadabra ilk olaraq o vaxt insanların temperaturunu düşürmək üçün istifadə olunub.
* Uran planeti adi gözlə görünən yeganə planetdir.
* Zebralar ağ üzərində qara xəttlərdir.
* Zürafələr üzə bilməzlər, üzsələr belə boğularlar.
* Günəş dünyadan 330,330 dəfə böyükdür.
*Havai əlifbasında sadəcə 12 hərf var.
* Norveçin şimalanda 14 həftə gecə- gündüz günəşli keçir.

# Hindistanda dondurmanın içindən insan barmağı çıxdı



**Hindistanda kişi dondurmanın içində insan barmağı aşkar edib. Mumbay şəhərinin (Hindistan) Malad rayonunun sakini onlayn dondurma sifariş etmək qərarına gəlib. Sifarişini alıb deserti dadmağa başlayanda o, əsl şok yaşayıb. Kişi dondurmanın içərisində insan barmağı görüb.**

Qeyri-adi tapıntı ilə alıcı polisə müraciət edib. Dondurma istehsalçısına qarşı iş açılıb. Polis dondurma qabını və insan orqanını məhkəmə-tibb ekspertizasına göndərib. "İnsan barmağının ölçüsü təxminən 1,5 santimetrdir", - deyə kişi bildirib.

## Qızardılmış yemək çox zərərlidir - xəbərdarlıq



**Hər kəs bilir ki, qida rasionunda qızardılmış yeməkdən daha zərərli heç nə yoxdur. Qızardılmış qidaların tərkibində kanserogenlər olur. Bunlar bədəndə xərçəngin inkişafına kömək edən birləşmələrdir. Kanserogenlər ya DNT-ni zədələyir, hüceyrə mutasiyasına səbəb olur, bu da onların fəaliyyətinin pozulması ilə nəticələnir. Yaxud hüceyrənin bölünməsi prosesini sürətləndirir ki, bu da yenidən DNT dəyişikliklərinə gətirib çıxarır.**

Kanserogenlər fiziki (günəş şüaları, rentgen şüaları və s.), kimyəvi (tütün, nitratlar, qida və ya tikinti əlavələri) və bioloji olaraq bölünür. Yeməkdə çoxlu karbohidratlar varsa, qızartma zamanı (180 dərəcədən yuxarı temperaturda) akrilamid buraxılacaq. Amma əsas təhlükə ət və ya balıq və digər məhsullar deyil, yeməyin qızardıldığı yağdır.

Qızdırıldıqda peroksidlər əmələ gəlir, nəticədə DNT-də mutasiyalara səbəb olur və hüceyrələri məhv edir. Günəbaxan yağı ən zərərli yağ hesab olunur. Mütəxəssislər sadəcə olaraq həddən artıq qızardılmış qidalara qapılmamağı məsləhət görürlər. Eyni qidalar bişmiş halda daha sağlam olur.



## Gündə neçə stəkan çay normadır?

**Yaşı 20-dən yuxarı insan gündə 4 fincandan artıq çay içməməlidir. Bu barədə qastroenteroloq Yevgeniy Belousov bildirib. "Həddən artıq çox çay içmək qaraciyər, böyrəklər və mədəni sıradan çıxarır. Çay yüksək dozada təhlükəlidir. Sutkalıq norması 3-4 fincandır. Bir fincan 100 ml həcmində olmalıdır. Amma orqanizmin çaya, kofeinə fərdi reaksiyası da var. Elə xroniki xəstə ola biər ki, ona çay əks-təsir edə bilər.**

Mütləq xəstəliyi olanlar orqanizmin vəziyyətinə uyğun kofein dozası seçməlidir. Çay antioksidant təsirlidir, sağlamlıq üçün zərərli deyil".

## Çində dənizin dibindən 600 illik əşyalar tapıldı

**Çinli arxeoloqlar Cənubi Çin dənizinin dibindən Min sülaləsinə (1368-1644) aid 900-dən çox artefakt çıxara biliblər. Bu barədə Çinin Mədəni İrs üzrə Dövlət İdarəsi məlumat yayıb. Bildirilib ki, həmin dövrdə iki gəminin batdığı akvatoriyada işlər 2023-cü ilin may ayından etibarən aparılır. 1500 metr dərinlikdən çıxarılan əşyalar arasında çini qablar, dulusçuluq və mis sikkələr də var. Bu tapıntılar tarixçilərə 500-600 il əvvəl bu bölgədə ticarətin necə aparıldığına dair daha dolğun təsəvvür yaratmağa imkan verəcək.**



## 7 gün edin və qarnınız dümdüz olsun

**Yayın gəlişi ilə qışda alınan çəki bir çox insanın narahatçılığına çevrilir. Buna görə də dietoloqlar artıq çəkidən cəmi bir həftəyə xilas olmağın yolunu açıqlayıb. Mütəxəssislər 1 həftyə düz qarına sahib ola biləcəyinizi deyir. Mütəxəssislər bitki çaylarını məsləhət görürlər. Bildirilib ki, maddələr mübadiləsini gücləndirir, buna görə də səhər tezdən ən yaxşı şəkildə istehlak edilir. Bundan əlavə, limon və xiyarla qarışdırılan su şişkinliyi azalda bilər. Bu, düz bir mədəyə sahib olmaq üçün faydalı ola bilər.**

Mütəxəssislərin ikinci məsləhəti çox natriumdan qaçmaqdır, çünki həddindən artıq su tutma bədənlərin şişkin görünməsinə səbəb olur. Duzu otlar və ədviyyatlarla dəyişdirmək natriumu azaltmağın asan bir yoludur, yeni çox su içməyə ehtiyacınız olmayacaq. Üçüncüsü, zülal qəbulunu artırmaq tövsiyə edilir. Bunun yağsız əzələ kütləsini qoruduğu deyilib. Dietoloqlar əlavə edir ki, ət, qatıq, bərk qaynadılmış yumurta və humuslu dilimlənmiş tərəvəzlərin çips və ya taxıl barları kimi işlənmiş qidaları asanlıqla əvəz edə biləcək.

Pəhriz saxlayanlara şirin kartof və qəhvəyi düyü kimi bir sıra kompleks karbohidratları tövsiyyə edilir. Bu növ karbohidratlar bədəninizə yanacaq verir və sizi daha uzun müddət tox hiss etdirir, başqa qəlyanaltılarda qəlyanaltı yeməyə həvəsiniz olmayacaq.

## Piyləri 3 günə əridən çərəz



**Pəhriz saxlayanlar üçün ən ideal qəlyanaltı alternativi ağ ləbləbidir. Noxud sağlamlığa faydaları ilə diqqət çəkən qidalardan biridir. Noxuddan hazırlanan ağ ləbləbi aclığı yatızdırır. Sürətli və sağlam şəkildə arıqlamaq istəyənlər bu çərəzə üstünlük verirlər. Ləbləbi olduqca faydalıdır, çünki tərkibində sağlam yağlar var. Bədənin ehtiyac duyduğu bəzi vitamin və mineralları da qarşılayır.**

Ağ ləbləbi pəhriz saxlayanların tez-tez üstünlük verdiyi çərəzlərdən biridir. Xüsusilə idmançıların idmandan əvvəl istehlak etdikləri bu qidanın tərkibində natrium, kalium, kalsium, dəmir, zülal, lif, A vitamini və C vitamini var. Ağ ləbləbi zülal və liflə zəngindir. Bu xüsusiyyətləri sayəsində toxluq hissini artıra və həzmi tənzimləyə bilər. Bağırsaq sağlamlığını qoruduğu üçün həzmsizlik kimi problemlərin aradan qaldırılmasına kömək edir.

Tərkibindəki kalsium, fosfor və maqnezium kimi minerallar sayəsində sümük sağlamlığını dəstəkləyir. Ehtiva etdiyi kompleks karbohidratlar sayəsində isə enerji səviyyələrini artırır.

Xolesterolu tənzimləmək istəyirsinizsə, ağ ləbləbi sizin üçün yaxşı seçim olacaq. Onun tərkibindəki lif xolesterol səviyyəsini tarazlaşdıra və ürək sağlamlığını qoruya bilər.

Tərkibindəki natrium isə qanda təzyiqi tarazlaşdırır. Bu sayədə yüksək təzyiq kimi ciddi vəziyyətlərin qarşısı alınır. Ləbləbi orqanizmi antioksidantlarla təmin edir. Antioksidantlar sərbəst radikallarla mübarizə apararaq hüceyrə zərərini azalda bilər. Ağ ləbləbi qan şəkərini balanslaşdırdığı üçün diabet riskini də aradan qaldırır. Bu çərəz ehtiva etdiyi A vitamini sayəsində göz sağlamlığını qoruyur. Bununla belə, ağ ləbləbinin həddindən artıq istehlakı, tərkibindəki yüksək miqdarda olan duz səbəbiylə xüsusilə ürək və ya böyrək xəstəliyi olan insanlar üçün sağlamlıq problemlərinə də səbəb ola bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor:
Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 1.500